08.05.2024-cü il Bakı şəhəri

**Azərbaycan Respublikası adından**
**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin İnzibati Kollegiyasının**

**İddiaçı "Azərbaycan Dəmir Yolları" QSC-nin**
**cavabdeh Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə qarşı iş üzrə**

# Q Ə R A R I

***(Açar sözlər: təbii inhisar subyektinin fəaliyyətinə antiinhisar nəzarəti, antiinhisar nəzarətinin predmeti, mütənasiblik prinsipi)***

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 003

**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin İnzibati Kollegiyası**

Hakimlər Kərimov Səyyad Əli oğlu (məruzəçi), Hüseyn Aida Əli qızı və Quliyev Zakir Müslüm oğlundan ibarət tərkibdə,

İddiaçı "Azərbaycan Dəmir Yolları" QSC-nin cavabdeh Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə qarşı "qərarın və göstərişin ləğvi" tələbinə dair inzibati iş üzrə Bakı Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının 20 sentyabr 2023-cü il tarixli, 2-1(103)-1280/2023 nömrəli qərarından cavabdeh tərəfindən verilmiş kassasiya şikayətinə əsasən işə yazılı məhkəmə icraatı qaydasında baxaraq aşağıdakı qərarı qəbul etdi.

**İŞİN HALLARI**

1. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən qəbul edilmiş "Antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə işə baxılmasının nəticələri haqqında" 21.06.2022-ci il tarixli qərarla "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin 1-ci bəndinə, "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 1-ci hissəsinə, 9-cu maddəsinin birinci hissəsinin birinci və altıncı bəndlərinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.05.1998-ci il tarixli, 120 nömrəli qərarı ilə təsdiq edilmiş "Antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxılması Qaydalarının" 2.12-ci bəndinə əsasən:

1. Dəmir yolu ilə daşıma xidmətlərinin göstərilməsi sahəsində rəqabətin təmin edilməsi, təbii inhisar subyektinin səlahiyyətlərinə uyğun olaraq müvafiq sahədə ədalətli tənzimləmənin həyata keçirməsinə nail olunması, habelə onun bazarda iştirakının istehlakçıların və bazar subyektlərinin mənafelərinin pozulması ilə nəticələnməməsi üçün hüquqi ünvanı Azərbaycan Respublikası, Bakı şəhəri, Dilarə Əliyeva küçəsi 230 olan "Azərbaycan Dəmir Yolları" QSC (VÖEN: 9900007721):

1.1. Cəmiyyətə məxsus törəmə müəssisələrin ekspeditor fəaliyyətinin 01.11.2022-ci il tarixinədək dayandırılmasını təmin etsin;

1.2. mövcud sahədə fəaliyyətini təsərrüfat infrastrukturu olaraq formalaşdırılması və özəl ekspeditorların sifarişlərinin icra edilməsi məqsədilə balansında olan vaqon parkının özü tərəfindən yaxud törəmə müəssisələri vasitəsilə idarə edilməsini 01.11.2022-ci il tarixindən etibarən təmin etsin;

1.3. vaqon parkının özü tərəfindən idarə edilməsi üçün aidiyyəti tədbirlər görülənədək Cəmiyyətin fəaliyyətində gəlirliliyə, ölkə ərazisində və tranzit yükdaşımada mövcud dövriyyənin daha da artırılmasına nail olunması, həmçinin rəqabətin təmin olunması məqsədi ilə mövcud icarə müqavilələrinin 01.09.2022-ci il tarixinədək ləğv olunmasını və vaqonların geri çağırılmasını, həmçinin vaqonların icarəyə verilməsi zərurəti yarandığı halda onların müsabiqə əsasında və şəffaf şəkildə qısa müddətli dövr üzrə real qiymətlərlə icarəyə verilməsini 01.09.2022-ci il tarixindən etibarən təmin etsin;

1.4. güzəşt və tariflərin daşınan yükün növləri üzrə sahibkarlıq subyektləri arasında ayrı-seçkilik yaradılmadan sağlam rəqabət prinsipləri qorunmaq şərti ilə vahid, şəffaf, əlçatan və proqnozlaşdırıla bilən formada müəyyən edilməsini, habelə daşıma qiymətlərinin süni bahalaşmasının qarşısının alınması üçün müxtəlif marşrutlar üzrə birbaşa və qarışıq nəqliyyat əlaqələrində vahid (end-to-end) tariflərin müəyyən edilməsini özündə ehtiva edən tarif və güzəştlərin tətbiq edilməsi mexanizminin (qaydalar, şərtlər, prosedurlar və s.) 01.11.2022-ci il tarixinədək müəyyənləşdirilməsini təmin etsin;

1.5. tariflər üzrə güzəştlərin subyektlərə deyil, daşınan yüklərə şamil edilməsini və bu məqsədlə güzəşt tətbiq edilən yüklərin siyahısının 01.11.2022-ci il tarixinədək təsdiq edilməsini təmin etsin;

1.6. Azərbaycan Respublikası Prezidentinin 18.09.2015-ci il tarixli, 622 nömrəli Fərmanından irəli gələn məsələlərin həlli istiqamətində "Dəmir yolu nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununun, yükgöndərənlər, daşıyıcılar və ekspeditorlar arasında münasibətləri tənzimləyən "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun layihələrinin, dəmir yolu nəqliyyatı ilə yüklərin daşınması qaydalarının, dəmir yolu nəqliyyatı haqqında nizamnamənin, ümumi istifadədə olan dəmir yolu nəqliyyatının infrastrukturunun saxlanması və ondan istifadə qaydalarının, dəmir yolu nəqliyyatının texniki istismar qaydalarının və digər normativ sənədlərin layihələrinin 31.12.2022-ci il tarixinədək hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsini təmin etsin;

1.7. aidiyyəti normativ hüquqi aktlar qəbul edilənədək, Xidmətlə razılaşdırmaqla 01.11.2022-ci il tarixinədək özəl ekspeditorların Cəmiyyətlə münasibətlərini tənzimləyən və ekspeditor fəaliyyətinə dair şərtləri özündə əks etdirən müvəqqəti qaydaların müəyyən edilməsini təmin etsin;

1.8. sahibkarlıq subyektlərinin göstərilən vaqon xidmətlərinə daha asan çıxışının təmin edilməsi üçün "ADY Smart" elektron platformasının (həmin platformada sifarişlərin qəbul edilməsi, göstərilən xidmətlərə görə daşıma tariflərinin (o cümlədən, idxal, ixrac və tranzit rejimləri üzrə daşınan yüklərin baza tarifləri və stansiya yığımlarının, yüklərin daşınmasına görə ödəniləcək ümumi dəyərin hesablanma qaydasının (elektron kalkulyatorun) əks olunması, habelə müraciətlərə baxılması və cavablandırılması üçün şəffaf, maneəsiz, rahat və əlçatan kommunikasiya imkanlarının yaradılması nəzərə alınmaqla) 01.11.2022-ci il tarixədək istifadəyə verilməsini təmin etsin;

1.9. vaqon parkının icarəyə verilməsi üzrə hərəkətlərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 dekabr tarixli 201 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydası"nın tələblərinə uyğun olaraq razılaşdırılmasını təmin etsin;

1.10. sərnişindaşıma fəaliyyətində istehlakçıların ehtiyaclarının nəzərə alınması ilə sərnişin vaqonlarından daha səmərəli istifadə edilməsi məqsədilə müvafiq təkliflərin hazırlanaraq razılaşdırılması üçün 01.09.2022-ci il tarixədək Xidmətə təqdim edilməsini təmin etsin.

2. Cəmiyyətə idarəetmənin optimallaşdırılması məqsədilə aşağıdakı qeyd edilən tədbirlərin həyata keçirilməsi tövsiyə edilmişdir:

2.1. tariflərin, yığımların, habelə tariflər üzrə güzəştlərin Cəmiyyətin Müşahidə Şurası tərəfindən təsdiq edilməsi;

2.2. gəlirlərin tariflərin artırılması hesabına deyil, yük dövriyyəsi hesabına artırılması məqsədilə müvafiq tədbirlərin görülməsi.

2. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən verilmiş və "Antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə işə baxılmasının nəticələri haqqında" 21.06.2022-ci il tarixli qərarın 1-ci bəndinin müddəalarını təkrarlayan "Antiinhisar qanunvericiliyinin pozulmasının aradan qaldırılması haqqında" 23.06.2022-ci il tarixli göstərişlərdə iddiaçıdan istinad olunan həmin qərarda nəzərdə tutulmuş tələblərin yerinə yetirilməsi tələb edilmiş, həmin göstərişə qarşı hüquqi müdafiə vasitələri ilə bağlı məlumat verilmişdir.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 003

## İŞ ÜZRƏ QƏBUL EDİLMİŞ MƏHKƏMƏ AKTLARI

***birinci instansiya məhkəməsində icraat***

3. İddiaçı cavabdehə qarşı iddia ərizəsi ilə Bakı İnzibati Məhkəməsinə müraciət edərək, “Antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə işlərə baxılmasının nəticələri haqqında” 21.06.2022-ci il qərarın və “Antiinhisar qanunvericiliyinin pozulmasının aradan qaldırılması haqqında” 23.06.2022-ci il tarixli göstərişin ləğv edilməsi barədə qərar qəbul olunmasını xahiş etmişdir.

4. İddia tələbi onunla əsaslandırılmışdır ki, 28.02.2022-ci il tarixində cavabdeh tərəfindən iddiaçı barəsində “Təbii inhisarlar haqqında” Qanunun 8-ci maddəsinin 3-cü hissəsinin və 10-cu maddəsinin 3-cü hissəsinin tələblərinin pozulması əlamətləri üzrə iş qaldırılması qərara alınmışdır. Daha sonra cavabdeh tərəfindən müvafiq araşdırmalar aparılaraq “Antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə işə baxılmasının nəticələri haqqında” 21.06.2022-ci il tarixli qərar qəbul olunmuş, həmçinin “Antiinhisar qanunvericiliyinin pozulmasının aradan qaldırılması haqqında” 23.06.2022-ci il tarixli göstərişlə iddiaçıya qarşı bir sıra tələblər irəli sürülmüşdür. Cavabdeh tərəfindən qəbul edilmiş qərar və müvafiq göstərişlə iddiaçıya qarşı irəli sürülmüş tələblərin hər hansı hüquqi əsası mövcud deyildir. Belə ki, sözügedən qərar ümumiyyətlə əsaslandırılmamış, qanunvericiliyin ümumi normaları vurğulanaraq iddiaçının konkret hansı pozuntuya yol verdiyini özündə əks etdirməmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.05.1998-ci il tarixli, 120 nömrəli qərarı ilə təsdiq edilmiş “Antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxılması Qaydaları”na 8 nömrəli əlavəyə uyğun olaraq, qərarın əsaslandırıcı hissəsində antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxan Komissiya qərar qəbul edərkən Komissiyanın öz nəticələrini əsaslandırdığı sübutlar, tərəflərin vəsatət və sübutlarını rədd edərkən əsas götürdüyü dəlillər göstərilməlidir. Cavabdehin qəbul etdiyi qərarda göstərilmişdir ki, cavabdeh tərəfindən iddiaçıdan yekun qərarın verilməsi və işə baxılması üçün sənəd və məlumatların təqdim olunması tələb edilmiş və iddiaçı tərəfindən müvafiq sənəd və məlumatlar Komissiyaya təqdim edilmişdir. Bununla belə, iddiaçı tərəfindən Komissiyaya hansı sənədlərin təqdim edildiyi və hansı məlumatlar üzrə araşdırmanın aparıldığı qeyd edilməmişdir. Qərarın əsaslandırma hissəsində sübutlara istinad edilməmişdir. Nazirlər Kabinetinin 29.05.1998-ci il tarixli, 120 nömrəli qərarı ilə təsdiq edilmiş “Antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxılması Qaydaları”na 8 nömrəli əlavənin qərar hissəsində göstərilmişdir ki, Xidmət qanun pozuntusunun aradan qaldırılması üçün müəyyən tədbirlərin görülməsi və bu barədə məlumatların təqdim edilməsi barədə göstəriş verir. Bununla belə, cavabdehin qərarında və göstərişində qanun pozuntusunun aradan qaldırılması deyil, müəyyən tədbirlərin görülməsinin təmin edilməsi tapşırılmışdır. Beləliklə, qeyd edilən qərarın və göstərişin qəbul edilməsi və müəyyən işlərin görülməsinin təmin edilməsi tapşırığının verilməsi qanunvericiliyin tələblərinə ziddir. Belə ki, nə Azərbaycan Respublikası Prezidentinin 12.05.2020-ci il tarixli, 1017 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Əsasnaməsi”ndə, nə də Nazirlər Kabinetinin adıçəkilən qərarında cavabdehə belə bir səlahiyyət verilməmişdir. Bu səbəbdən cavabdehin “Antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə işə baxılmasının nəticələri haqqında” 21.06.2022-ci il tarixli qərarı və “Antiinhisar qanunvericiliyinin pozulmasının aradan qaldırılması haqqında” 23.06.2022-ci il tarixli göstərişi ləğv edilməlidir.

5. Cavabdehin iddiaya qarşı etirazında qeyd edilmişdir ki, iddiaçı tərəfindən yükdaşıma xidmətlərinin həyata keçirilməsi, bu sahədə sifarişlərin qəbul edilməsi və yükdaşımanın icra edilməsi, iddiaçının balansında olan vaqonların icarəyə verilməsi,

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

yükdaşıma xidmətlərinin həyata keçirilməsi zamanı müəyyən edilən tariflər və tariflər üzrə tətbiq edilən güzəştlərin müəyyən edilməsi, tariflərin və güzəştlərin iqtisadi əsası, tətbiqetmə metodikası və qaydaları, iddiaçı tərəfindən yaradılmış rəqabət mühiti və göstərilən dəmir yolları xidmətləri üzrə tətbiq edilən elektron həllər sahəsində cavabdeh tərəfindən müvafiq araşdırmalar aparılmış və iddiaçı barəsində 21.06.2022-ci il tarixli qərar və 23.06.2022-ci il tarixli göstəriş qəbul edilmişdir. Qəbul edilmiş qərar "Təbii inhisarlar haqqında" Qanunun və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.05.1998-ci il tarixli, 120 nömrəli qərarı ilə təsdiq edilmiş "Antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxılması Qaydaları"nın tələblərinə uyğun olaraq qəbul edilmiş və qərar müvafiq hüquq normaları ilə əsaslandırılmışdır. Xidmət tərəfindən qərarın qəbul edilməsi ilə bağlı araşdırmalar və dəqiqləşmələr aparılmış, müəyyən edilmiş sistematik hüquq pozuntularının aradan qaldırılması istiqamətində konkret göstərişlər verilmişdir. Verilmiş göstərişlər dəqiq icra tələb etməklə yanaşı, konkret və aydın tarixləri özündə ehtiva etmişdir. Bu mənada, iddia ərizəsində göstərilən "iddiaçıya qarşı irəli sürülmüş tələblərin hüquqi əsası yoxdur; araşdırma aparılmamışdır; göstərişin verilməsi qanunvericiliyin tələblərinə ziddir; cavabdehin belə bir səlahiyyəti yoxdur" kimi ifadələr əsaslı deyildir. "Təbii inhisarlar haqqında" Qanunun 8.1-ci maddəsinə əsasən, təbii inhisarları tənzimləyən orqanlar bu Qanuna və Azərbaycan Respublikasının digər normativ-hüquqi aktlarına uyğun olaraq təbii inhisar subyektlərinin fəaliyyətinə dövlət nəzarətini həyata keçirirlər. Təbii inhisarları tənzimləyən orqanlar istehlakçıların mənafeyinə mənfi təsir göstərə bilən və ya təbii inhisar vəziyyətindən sərbəst rəqabət vəziyyətinə iqtisadi cəhətdən əsaslandırılmış keçidə mane olan hərəkətlərin qarşısının alınması və ya aradan qaldırılması üçün bu Qanunla və digər normativ-hüquqi aktlarla müəyyən edilmiş tədbirlər görürlər. İddiaçının sözügedən qərarın əsassız olması ilə bağlı iddia ərizəsində qeyd etdiyi fikirlərə münasibətdə aşağıdakılar qeyd edilir: İddiaçı qərarın 1.1-ci bəndi ilə bağlı ona məxsus törəmə müəssisələrin ekspeditor fəaliyyətinin 01.11.2022-ci il tarixədək dayandırılmasının təmin edilməsi tələbinin qanunsuz olduğunu qeyd etmişdir. Bununla əlaqədar bildirilir ki, cavabdeh tərəfindən iddiaçının 2 törəmə şirkəti ("ADY Ekspress" MMC və "ADY Konteyner" MMC) vasitəsi ilə bazarda həm də ekspeditor fəaliyyəti göstərdiyi və nəticədə mövcud sahədə rəqabət mühitinin məhdudlaşdırıldığı, tariflər üzrə güzəştlərin bir qayda olaraq məhsullara görə deyil, daşıyıcı subyektlərə, yaxud sahibkarlıq subyektlərinə tətbiq edildiyi və eyni kateqoriya yükü daşıyan digər sahibkarlıq subyektinin belə güzəşti əldə etməsinin məhdud olduğu müəyyən edilmişdir. Dəmir yol daşımalarına münasibətdə daşıyıcı kimi çıxış edən iddiaçı ekspedisiya fəaliyyətini əsasən özünün yaratdığı törəmə cəmiyyətlər vasitəsilə həyata keçirir. Ekspedisiya fəaliyyəti sahibkarlıq fəaliyyətidir və bu sahədə özəl ekspeditorlar fəaliyyət göstərir. İddiaçının daşıma fəaliyyəti ilə yanaşı özünün yaratdığı törəmə müəssisələr vasitəsilə ekspedisiya fəaliyyətini göstərməsi özəl sahibkarlıq subyektlərinin fəaliyyətini məhdudlaşdırır və rəqabətə mənfi təsir göstərir. Çünki daşıma imkanları (vaqon, lokomotiv və dəmir yol xətləri) sərəncamında olan bir subyekt ilə belə imkanları olmayan və fəaliyyəti seçdiyi daşıyıcı vasitəsilə yükgöndərənin yüklərini bir təyinat nöqtəsindən digər təyinat nöqtəsinə çatdırılmasını təşkil etməyə görə muzd almaqdan ibarət olan özəl sahibkarın rəqabət aparması real deyildir. Qeyd edilən 8 ekspeditor şirkətinin fəaliyyəti iddiaçı ilə əlaqəlidir. Belə ki, iddiaçı yükdaşımalar üzrə yalnız bu şirkətlərə digər özəl ekspeditor şirkətlərinə vermədiyi imtiyazları verir, imkanları yaradır və tariflərdə güzəştlər tətbiq edir. Qərarın 1.2-ci və 1.3-cü bəndləri ilə əlaqədar iddiaçı onun balansında olan vaqonların icarəyə verilməsi barədə "Təbii inhisarlar haqqında" Qanunun 8.2-ci maddəsinə əsasən onların balans dəyərinin ümumi nizamnamə kapitalının 10%-dən çox olmaması səbəbindən cavabdehin hər hansı göstəriş verməsinin əsassız olduğu qeyd edilmişdir. İddia ərizəsində qeyd edilmişdir ki, hazırda iddiaçının işlək vaqon parkının sayı 3848 ədəd, özəl vaqon parkı isə 4427 ədəd vaqon təşkil edir. İddiaçının

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

02.06.2021-ci il tarixli, 70562 nömrəli məktubu ilə cavabdehə verilmiş məlumatında cavabdehin balansında olan vaqonların ümumi sayının 6891 ədəd təşkil etdiyi və onlardan 2754 ədədinin istismar müddətinin bitdiyi bildirilmişdir. İşə baxılması zamanı iddiaçı tərəfindən 14.03.2022-ci il tarixli, 153905 nömrəli məktubla təqdim olunmuş məlumatda isə 01.02.2022-ci il tarixinə iddiaçının balansında 2683 ədəd vaqon (o cümlədən 574 ədəd qeyri-tip vaqon) və 149 ədəd magistral və manevr lokomotivlərinin mövcud olduğu göstərilmişdir. Beləliklə, iddiaçı tərəfindən vaqonların sayı ilə bağlı təqdim edilmiş 3 məlumatda (1 məlumat iddia ərizəsində məhkəməyə, 2 məlumat isə cavabdehə) vaqonları sayı müxtəlif göstərilmişdir. Bu isə reallığın müəyyən edilməsini çətinləşdirir. Halbuki, 2021-ci ildə işlək vaqonların sayı 4137 ədəd, 2022-ci ildə 2683 ədəd göstərilmişdir. Məlumatlara uyğun olaraq bir il ərzində 1454 ədəd vaqonun azaldığı ehtimalı yaranmışdır. Lakin məhkəməyə təqdim edilmiş iddia ərizəsində işlək vaqon parkının sayının 3848 ədəd olduğu bildirilmişdir. Göründüyü kimi, iddiaçı tərəfindən 14.03.2022-ci il tarixli 153905 nömrəli məktubla cavabdehə düzgün olmayan məlumat verilmişdir ki, bu faktın özü də iddiaçının cərimələnməsinə əsas verir ("Təbii inhisarlar haqqında" Qanunun 11-ci maddəsinin 1.3-cü bəndinə əsasən təbii inhisarları tənzimləyən orqanlara düzgün olmayan məlumatın verilməsinə görə təbii inhisar subyektlərinə min yüz manatadək cərimə (maliyyə sanksiyası) tətbiq edilir). İddiaçının vaqon parkının sayı barədə qeyd edilənlər belə bir fikri irəli sürməyə əsas verir ki, ya vaqon parkı barədə iddiaçıda dəqiq məlumat mövcud deyildir, yaxud da qeyri-dəqiq məlumatlar verilməklə real vəziyyət pərdələnməyə çalışılır. Digər tərəfdən, iddia ərizəsində qeyd edilmişdir ki, 2021-ci ildə yükdaşımada istifadə olunan vaqonların faiz nisbəti iddiaçı üzrə 38%, özəl vaqonlara münasibətdə isə 62% təşkil etmişdir. Bununla bağlı bildirilir ki, 62% olaraq qeyd edilən vaqonların mütləq əksəriyyəti dövlət büdcəsi vəsaiti hesabına alınmış və törəmə müəssisələrin ("ADY Ekspress" MMC və "ADY Konteyner MMC) sərəncamına verilmiş vaqonlar təşkil edir (iddiaçı tərəfindən bu barədə məlumat təqdim edilmədiyindən törəmə müəssisələrinin sərəncamında olan vaqonların sayı məlum deyildir). İddiaçının balansında olan, iddiaçının və dövlət büdcəsinin vəsaiti hesabına alınmış vaqonlar cüzi icarə qiymətləri ilə müəyyən şirkətlərə (həmin vaqonlardan 575 ədədinin 4 özəl şirkətə-"Alliance Logistics" FZCO-ya ədədi 13 ABŞ dollarına, "Qazax Sement Zavodu" MMC-yə ədədi 14 və 17 manata, "Kontur Arxitektura Layihə Sənaye" QSC-yə 14 manata və "Globe Trans" MMC-yə 13 manata) icarəyə verilmişdir. Qeyd edilməlidir ki, həmin vaqonların illər ərzində eyni şirkətlərə icarəyə verilməsinin əsası və məqsədini araşdırmaq mümkün olmamışdır. Lakin əminliklə qeyd etmək mümkündür ki, iddiaçı vaqonların icarəyə verilməsi zərurəti yarandığı halda, onların müsabiqə əsasında və şəffaf şəkildə icarəyə verilməsini təşkil etməmişdir, eləcə də vaqonların icarəyə, yaxud müddətli istifadəyə verilməsinin, habelə icarə haqqının müəyyənləşdirilməsinin təsdiq olunmuş qayda və normativləri mövcud olmamış, subyektiv qərarlar əsas götürülmüşdür. Halbuki, 8 şirkətin əhatə dairəsinə daxil olmayan digər özəl şirkətlər sırasında iddiaçıdan real bazar qiymətləri ilə vaqon icarəyə götürmək istəyən subyektlərin olması istisna edilmir. Vaqonların icarəyə verilməsi sahəsində aşkar edilmiş qeyri-şəffaf mexanizmin, iddiaçının və dövlət büdcəsinin vəsaiti hesabına alınmış vaqonların iddiaçının özü tərəfindən daşıma məqsədləri üçün daha rentabelli istismar edilməsinə zərurət olduğu halda cüzi qiymətlərlə icarəyə verilməsi faktının mövcudluğu, ölkənin hazırkı iqtisadi inkişaf prioritetləri ilə uyğunlaşmır və buna görə də vaqon parkının icarəyə verilməsi ilə bağlı müqavilələrin ləğv edilməsi və vaqonların iddiaçının özü tərəfindən özəl ekspeditor şirkətlərinin sifarişləri əsasında ağlabatan daşıma qiymətlərilə daşınma fəaliyyətinə cəlb edilməsi zəruridir. Bütün bu faktlar iddiaçının üzərində dövlət nəzarətinin artırılmasının ciddi zərurət olduğunu, verilmiş qərarın əsaslı olduğunu, gecikmiş olsa belə, hazırkı zamanın tələbləri ilə ayaqlaşdığını göstərir və iddiaçının mövcud sahədə fəaliyyətinin təsərrüfat infrastrukturu olaraq formalaşdırılmasının və özəl

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 003

ekspeditorların sifarişlərinin icra edilməsi məqsədilə balansında olan vaqon parkının özü tərəfindən yaxud törəmə müəssisələri vasitəsilə idarə edilməsinin, habelə rəqabətin təmin olunması məqsədi ilə mövcud icarə müqavilələrinin ləğv olunmasını və vaqonların geri çağırılmasını zəruri edir. Qeyd edilənlərlə yanaşı iddia ərizəsində cavabdehin səlahiyyətlərinin yalnız təbii inhisar fəaliyyət sahəsinə (Magistral və yerli dəmir yolu xətlərinin, yol qurğu və tikililərin istismarı, hərəkəti idarəetmə və hərəkət təhlükəsizliyi fəaliyyəti, dəmir yolu stansiyaları və sərnişin vağzalları xidmətləri — “Təbii inhisarlar haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 1.4-cü bəndi) dövlət nəzarəti ilə bağlı olduğu halda, vaqonların icarəyə verilməsinin qanunla tənzimlənən təbii inhisar fəaliyyəti hesab olunmadığı, habelə icarəyə verilmiş 575 ədəd vaqonun ümumi balans dəyərinin iddiaçının nizamnamə kapitalının 10%-ni təşkil etmədiyi, bu halın qərarda araşdırılmadığı göstərilmişdir. İddia ərizəsində qeyd edilən bu fikirlərin əsassız olması ilə bağlı bildirilir ki, “Təbii inhisarlar haqqında” Qanunun 8-ci maddəsinin 2.3-cü bəndinə əsasən əsas vəsaitlərin lizinq əsasında istehlakçılara verilməsi və 2.4-cü bəndinə əsasən təbii inhisar subyektləri tərəfindən bu Qanunla tənzimlənməyən fəaliyyət sahələrinə investisiyaların ayrılması dövlət nəzarətinin əhatə dairəsinə aiddir. İddiaçının əsas vəsaitini təşkil edən vaqonların icarəyə verilməsi üzərində dövlət nəzarətinin həyata keçirilməsi cavabdehin səlahiyyətlərinə aiddir. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, büdcə vəsaiti hesabına alınan vaqonları cüzi icarə qiymətləri ilə üçüncü şəxslərin sərəncamına verilməsi həmin əsas vəsaitlərin amortizasiyasına səbəb olur, bu isə yeni vaqonların alınmasını şərtləndirir, halbuki vaqonlardan rentabelli istifadə edilməsi amortizasiya olunan vəsaitlərin büdcə vəsaiti olmadan, əldə edilən gəlirlər hesabına yenisi ilə əvəz olunmasına imkan vermiş olmalıdır. Dövlət büdcəsinin vəsaiti isə magistral və yerli dəmir yolu xətlərinin, yol qurğu və tikililərin yenilənməsinə, müasir tələblərə uyğun vəziyyətə gətirilməsinə sərf oluna bilərdi. Bütün bu məsələlər üzərində “Təbii inhisarlar haqqında” Qanunun 8-ci maddəsinin 2.4-cü bəndinə uyğun olaraq dövlət nəzarəti həyata keçirilir və keçiriləcəkdir. Eyni zamanda vaqonların icarəyə verildiyi zaman bu hərəkətlərin edilməsinə razılıq almaq üçün cavabdehə müraciət edilməmişdir. Araşdırma zamanı bu fakt müəyyən edilmişdir, lakin “Təbii inhisarlar haqqında” Qanunun 8-ci maddəsinin 2.2-ci bəndinin tələbləri və 575 ədəd vaqonun iddiaçının ümumi balansının 10%-ni təşkil etmədiyi nəzərə alınaraq qərarla iddiaçıya həmin Qanunun 11-ci maddəsinin 1.1-ci bəndi ilə cərimə (maliyyə sanksiyası) tətbiq edilməmişdir. Lakin qərarın 1.9-cu bəndi ilə iddiaçıya vaqon parkının icarəyə verilməsi üzrə hərəkətlərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25.12.2001-ci il tarixli, 201 nömrəli qərarı ilə təsdiq edilmiş “Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydası”nın tələblərinə uyğun olaraq razılaşdırmasını təmin etmək göstərişi verilmişdir. Yəni gələcəkdə əgər “Təbii inhisarlar haqqında” Qanunun 8-ci maddəsinin 2-ci bəndinin tələblərinin təsiri altına düşəcək hərəkət icra ediləcəksə, həmin hərəkət icra edilməmişdən əvvəl Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25.12.2001-ci il tarixli, 201 nömrəli qərarı ilə təsdiq edilmiş “Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydası”nın tələblərinin nəzərə alınmasının zəruriliyi bildirilmişdir. İddia ərizəsində qərarın 1.4-cü bəndi ilə əlaqədar olaraq iddiaçının Nizamnaməsinin müvafiq maddələrinə istinad edilərək onun səlahiyyət sahibi olaraq müstəqil tarif müəyyən etməsi bildirilmiş və bunun hər hansı qanunvericiliyin tələblərini pozmadığı qeyd edilmişdir. Bununla əlaqədar olaraq bildirilir ki, iddiaçının daxili tariflərin müəyyənləşdirilməsi ilə bağlı səlahiyyətinin olmaması, yaxud səlahiyyətini aşması, habelə tariflərin müəyyən edilməsi zamanı hansı meyarların nəzərə alınması, hansı meyarların nəzərə alınmaması qərarda bildirilməmişdir. Qərarın 1.4-cü bəndinin məqsədi tariflərin müəyyən edilməsinə nail

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

olmaqdır (yəni tariflər necə, hansı meyarlar əsas götürülməklə müəyyən edilir-edilsin, ancaq müəyyən edilsin), çünki hazırda tariflər qeyri-müəyyəndir və hər dəfə hər subyektə münasibətdə ad hoc müəyyən edilir. Bu təcrübəyə son qoyulması vacibdir. Hər yük sahibi və ya ekspeditora münasibətdə hər dəfə ayrıca tarifin hesablanması subyektivlik formalaşdırır, əngəllərin və ayrı-seçkiliyin yaranmasına səbəb olur. Yük sahibi və ya ekspeditor iddiaçıya tarif müəyyən edilməsi üçün müraciət etmədən, hansı yükü hansı məntəqəyə hansı tariflə daşıya biləcəyini internet portalı vasitəsilə bilmək imkanına malik olmalıdır. Bu mənada, yük sahibi üçün bağlı qapı arxasında hər dəfə tarif müəyyən edilməsi əvəzinə, tariflər vahid (yəni bütün ekspeditorlar üçün ümumi), şəffaf (yəni bütün ekspeditorlar üçün bərabər, aydın), əlçatan (yəni internet portalında hər kəsin əldə edə biləcəyi formada) və proqnozlaşdırıla bilən (yəni yük sahibi sahibkarlıq fəaliyyətini həyata keçirərkən rentabelliyi hesablayarkən daşıma xərclərini əvvəlcədən proqnozlaşdıra bilməli və sonradan "sürpriz" tariflərlə rastlaşmaq təhlükəsindən qorunmalıdır) formada müəyyən edilməsi zəruridir. Digər tərəfdən, qapıdan-qapıya ("end-to-end") tariflərlə bağlı iddiaçının qeyd etdikləri ilə əlaqədar bildirilir ki, iddiaçının bu məsələni mürəkkəbləşdirəcək fikirləri ilə cavabdeh razı deyildir (yəni o qədər mürəkkəbləşdirməyə ehtiyac yoxdur), tarif və güzəştlərin tətbiq edilməsi mexanizminin (qaydalar, şərtlər, prosedurlar və s.) müəyyən edilməsi özü-özlüyündə "end-to-end" tariflərin də müəyyən edilməsinə imkan və şərait yaradacaqdır. İddia ərizəsində qərarın 1.5-ci bəndi ilə əlaqədar olaraq tariflərin subyektlərə deyil, daşınan mallara, marşrutun istiqamətinə və daşıma dövriyyəsinə münasibətdə tətbiq olunduğu, buna görə də tələbin əsassız olduğu bildirilmişdir. Bununla əlaqədar olaraq bildirilir ki, araşdırma zamanı dəqiq olaraq müəyyən olunmuşdur ki, əksər hallarda tariflər üzrə güzəştlər iddiaçı ilə müqaviləsi olan subyektlərə tətbiq edilir. Bu fakt hətta iddia ərizəsində qeyd edilən bir fikirlə də təsdiq olunur. Belə ki, ərizənin 10-cu səhifəsinin axırında qeyd edilmişdir: "iddiaçı tərəfindən güzəştlər üçüncü şirkətlərə deyil, ekspeditor şirkətlərinə verilir. Belə ki, iddiaçı nəqliyyat-ekspedisiya müqaviləsini birbaşa üçüncü şirkətlərlə deyil, ekspeditor şirkətləri ilə bağlayır və güzəştlər bütün ekspeditor şirkətlərinə eyni qaydada tətbiq olunur." İddia ərizəsindən götürülmüş bu ifadələr iddiaçının qeyd etdiyi mövqeyin həqiqi olmadığını sübut edir. Lakin hər bir halda, hesab edilir ki, əgər tariflər üzrə güzəşt verilirsə, bu iddiaçının müqavilə bağladığı (bu belə rəqabəti pozan haldır) şəxslərə deyil, mallara görə müəyyən edilməlidir. Belə malların (yüklərin) siyahısı müəyyən olunmalı və elan edilməlidir. Çünki güzəşt alan müəssisə daşıdığı bütün yüklərə münasibətdə həmin güzəştlərdən (endirilmiş tariflərdən) istifadə edir. Bu rəqabəti pozur. Çünki güzəşt hüququ olmayan (iddiaçının müqavilə bağlamadığı) ekspeditorlar tərəfindən yüklər güzəştsiz tariflərlə daşınır ki, bu da əlbəttə iddiaçının törəmə şirkətlərinin güzəştli tariflərindən baha olmuş olur. Qeyd edildiyi kimi, tariflər subyektlərə münasibətdə deyil, yüklərə münasibətdə təsbit olunmalıdır. Məsələn, strateji məhsul olan klinkerin daşınması tariflərinə güzəşt müəyyən edilə bilər, bu halda klinkerin daşınması üzrə fəaliyyəti həyata keçirən bütün subyektlər yalnız klinkerin daşınması üzrə belə güzəştdən bəhrələnəcəklər. Qərarın 1.6-cı bəndi ilə əlaqədar iddiaçı iddia ərizəsində sözügedən qanunvericilik aktlarının hazırlanması ilə bağlı tələbin qeyri-müəyyən olmasını və bir dövlət orqanının digər dövlət orqanının səlahiyyətinə müdaxilə etməsini, digər məsələlərin onların səlahiyyətləri xaricində olduğunu qeyd etmişdir. Bununla əlaqədar bildirilir ki, Azərbaycan Respublikası Prezidentinin 18.09.2015-ci il tarixli, 622 nömrəli Fərmanı ilə sözügedən normativ-hüquqi aktların hazırlanıb təqdim edilməsi tapşırığı Nazirlər Kabinetinə verilmişdir. Həmin tapşırığın icra müddəti də Nazirlər Kabineti üçün müəyyən edilmişdir. Həmin Fərmanda iddiaçı üçün belə tapşırıq müəyyən edilməmişdir. Hazırkı qərarla da iddiaçıya verilmiş göstəriş üzrə müəyyən edilmiş müddət sözügedən Fərmanla müəyyən edilmiş tapşırığın icra müddətini dəyişdirmir, yaxud yeni icra müddəti müəyyən etmir. Nəzərə alınmalıdır ki, iddiaçının Nizamnaməsinin 3.2.31-ci bəndinə əsasən dəmir yolu

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 003

sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə və fəaliyyət dairəsinə aid olan sahələrdə islahatların aparılmasına, dəmir yollarının və dəmir yolu təsərrüfatının inkişafına və investisiya proqramlarına dair təkliflərin hazırlanaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsi vəzifəsi iddiaçıya məxsusdur. İddiaçı "Dəmir yolu nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununun, yükgöndərənlər, daşıyıcılar və ekspeditorlar arasında münasibətləri tənzimləyən "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun layihələrinin, dəmir yolu nəqliyyatı ilə yüklərin daşınması qaydalarının, dəmir yolu nəqliyyatı haqqında nizamnamənin, ümumi istifadədə olan dəmir yolu nəqliyyatının infrastrukturunun saxlanması və ondan istifadə qaydalarının, dəmir yolu nəqliyyatının texniki istismar qaydalarının və digər normativ sənədlərin layihələrinin hazırlanmasında maraqlı olmalı, aidiyyəti layihələrin hazırlanmasının və qəbul edilməsinin təşəbbüskarı olmalıdır. Lakin Azərbaycan Respublikası Prezidentinin 18.09.2015-ci il tarixli, 622 nömrəli Fərmanının qəbul edilməsindən 7 il vaxt keçmişdir. İddiaçının bu məsələyə münasibəti təəssüf doğuran haldır. Cavabdeh hesab edir ki, iddiaçı öz Nizamnaməsinə uyğun olaraq tezliklə dəmir yolu təsərrüfatına dair hüquq münasibətlərini tənzimləyən normativ hüquqi aktların layihələrini hazırlayaraq aidiyyəti üzrə (bu sahədə dövlət siyasətini və idarəetməni həyata keçirən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə) təqdim etməlidir. İddia ərizəsində qərarın 1.7-ci bəndi ilə bağlı aidiyyəti normativ hüquqi aktlar qəbul edilənədək cavabdehlə razılaşdırmaqla 01.11.2022-ci il tarixinədək özəl ekspeditorların iddiaçı ilə münasibətlərini tənzimləyən və ekspeditor fəaliyyətinə dair şərtləri özündə əks etdirən müvəqqəti qaydaların müəyyən edilməsinin qanunsuz və əsassız olduğu qeyd edilmişdir. İddia ərizəsində qərarın 1.8-ci bəndi ilə əlaqədar iddiaçı tərəfindən "ADY SMART" elektron platformasının iddiaçıya məxsus olduğu və onun müəssisədaxili qaydaları olduğu qeyd edilmişdir. Qeyd edilən fikirlə bağlı bildirilir ki, işə baxılma iclasları zamanı iddiaçının nümayəndələri tərəfindən son illərdə "ADY Smart" elektron platformasının yaradıldığı, hazırda test rejimində fəaliyyət göstərdiyi, fiziki və hüquqi şəxslərin sifarişlərinin açıq elektron platforma üzərindən qəbul edilmədiyi, sifarişlərin əsasən kağız və ya elektron müraciət formalı ərizələr formasında qəbul edildiyi, bu platformanın gələcəkdə bütün subyektlərə öz müraciətlərini elektron formada təqdim etməyə, yüklərin ünvanlarını və ölçülərini seçməklə tarifləri hesablamağa imkan verəcəyi, lakin hazırda bu platformadan yalnız qeyd edilən 8 ekspeditorun istifadə etdiyi qeyd edilmiş və nəticədə mövcud sahədə rəqabət mühitinin məhdudlaşdırıldığı müəyyən edilmişdir. Platforma hazır və istifadəyə yararlıdır. Cavabdeh hesab edir ki, bazar iştirakçıları arasında bərabərliyin yaradılması üçün həmin platformadan 8 ekspeditorla yanaşı digər ekspeditorların da istifadəsinə şərait yaradılmalıdır. Qərarın 1.8-ci bəndi ilə əlaqədar iddiaçı vaqonların icarəyə verilməsi zamanı cavabdehə hər hansı məlumat və sənədi təqdim etmə öhdəliyinin olmadığını qeyd edir. Cavabdeh, 21.06.2022-ci il tarixli qərarda da göstərildiyi kimi, vaqon parkının icarəyə verilməsi üzrə hərəkətlərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25.12.2001-ci il tarixli, 201 nömrəli qərarı ilə təsdiq edilmiş "Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydası"nın tələblərinə uyğun olduğu təqdirdə razılaşmanın həyata keçirilməsinin vacibliyini vurğulayır.

6. Bakı İnzibati Məhkəməsinin (hakim: Günel Sevdimalıyeva) 28 oktyabr 2022-cü il tarixli, e-2-1(112)-10675/2022 nömrəli qərarı ilə iddia təmin edilmiş, cavabdehin "Antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə işlərə baxılmasının nəticələri haqqında" 21.06.2022-ci il qərarı və "Antiinhisar qanunvericiliyinin pozulmasının aradan qaldırılması haqqında" 23.06.2022-ci il tarixli göstərişi ləğv edilmişdir.

7. Birinci instansiya məhkəməsi iddianın mümkünlüyünə münasibətdə qeyd etmişdir ki, mübahisələndirilən qərar və göstəriş inzibati aktdır, iddiaçıya münasibətdə

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 003

hüquqi nəticə yaradır, göstəriş qərarın icrasının təmin edilməsi məqsədilə verilmişdir, inzibati aktların faktiki və hüquqi əsasları eynidir, odur ki, birgə baxılmalı və vahid qərar qəbul edilməlidir. Antiinhisar qanunvericiliyinin pozulması haqqında işə antiinhisar orqanının təşəbbüsü ilə baxılmış, mübahisələndirilən qərar 21.06.2022-ci il tarixli, göstəriş 23.06.2022-ci il tarixlidir. İddia ərizəsi məhkəməyə 19.07.2022-ci il tarixdə təqdim edilmişdir. İddia mümkündür.

8. Birinci instansiya məhkəməsi iddianın mahiyyətinə münasibətdə qeyd etmişdir ki, istehlakçıların mənafeyinə mənfi təsir göstərə bilən və ya təbii inhisar vəziyyətindən sərbəst rəqabət vəziyyətinə iqtisadi cəhətdən əsaslandırılmış keçidə mane olan hərəkətlərin qarşısının alınması və ya aradan qaldırılması üçün təbii inhisarları tənzimləyən orqan tərəfindən görülməli tədbirlər qanunverici tərəfindən müəyyən edilmişdir. Bununla əlaqədar, təbii inhisarları tənzimləyən orqanların səlahiyyətləri "Təbii inhisarlar haqqında" Qanunun 9-cu maddəsində müəyyən edilir (məsələn, təbii inhisar subyektlərinin hər biri üçün tətbiq edilməli olan tənzimləmə üsullarını müəyyən etmək; tənzimləmə üsullarının tətbiqi haqqında təbii inhisar subyektləri tərəfindən yerinə yetirilməsi məcburi olan qərar qəbul etmək, təbii inhisar subyektlərinə qanun pozuntusu nəticəsində əldə edilmiş mənfəətin büdcəyə ödənilməsi, xidmət edilməsi məcburi hesab edilən istehlakçılarla müqavilə bağlanması, müqavilələrə dəyişikliklər edilməsi haqqında icrası məcburi olan göstərişlər vermək; təbii inhisar subyektlərinin fəaliyyətinin tənzimlənməsinin maliyyə məsələlərinin həlli ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanına müraciət etmək). Məhkəmə qeyd edir ki, təbii inhisarları tənzimləyən orqanın, yəni cavabdehin təbii inhisar subyekti, konkret halda iddiaçının nəzarət həyata keçirilən hərəkətlərinin dairəsi qanunverici tərəfindən müəyyən edilmişdir ("Təbii inhisarlar haqqında" Qanunun 8-ci maddəsinin 2-ci hissəsi). Odur ki, məhkəmə hesab edir ki, təbii inhisarları tənzimləyən orqan kimi cavabdehin səlahiyyətləri "Təbii inhisarlar haqqında" Qanunun 9-cu maddəsinə uyğun olaraq iddiaçının (təbii inhisar subyekti kimi) həmin Qanunun 8-ci maddəsində nəzərdə tutulmuş təbii inhisara aid edilən fəaliyyət növləri ilə bağlı hərəkətləri üzərində həyata keçirilmiş olduqda qanuni hesab oluna bilər. Odur ki, mübahisələndirilən qərarın və göstərişin qanuniliyi, həmin sənədlərin qeyd edilən tələblər nəzərə alınmaqla qəbul edilməsindən asılıdır.

9. Mübahisələndirilən qərarın 1.1-ci bəndi ilə bağlı (və ona uyğun olaraq verilmiş göstərişə münasibətdə) birinci instansiya məhkəməsi qeyd etmişdir ki, mübahisələndirilən qərarda iddiaçının iki törəmə şirkəti ("ADY Ekspress MMC" və "ADY Konteyner" MMC) vasitəsi ilə bazarda həm də ekspeditor fəaliyyəti göstərdiyi və nəticədə mövcud sahədə rəqabət mühitinin məhdudlaşdırıldığı, tariflər üzrə güzəştlərin bir qayda olaraq məhsullara görə deyil, daşıyıcı subyektlərə, yaxud sahibkarlıq subyektlərinə tətbiq edildiyi və eyni kateqoriya yükü daşıyan digər sahibkarlıq subyektinin belə güzəşti əldə etməsinin məhdud olduğu müəyyən edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş nizamnaməyə əsasən, nəqliyyat-ekspedisiya xidmətlərinin göstərilməsi iddiaçının fəaliyyət istiqamətlərinə aiddir və törəmə cəmiyyətləri iddiaçının strukturunu təşkil edir. Odur ki, iddiaçının özü və ya törəmə cəmiyyətləri vasitəsilə nəqliyyat-ekspedisiya xidmətlərinin göstərilməsinə hər hansı məhdudiyyət yoxdur. Məhkəmə nəzərə alır ki, iddiaçının ekspeditor fəaliyyəti özəl ekspeditorların fəaliyyətinə maneçilik törətmir. Belə ki, iddiaçı ilə özəl ekspeditor şirkətləri arasında bağlanmış müqavilələr ("Alliance Logistics" MMC, "Alliance Logistics" FZCO, "Caspian Rail" MMC, "El Logistics Group" MMC, "Sara Logistics" MMC, "Astara Grain Terminal" MMC, "SOCAR Logistics" DMCC, "Arkoz Qazax Sement Zavodu" MMC) məhkəməyə təqdim edilmişdir. Həmin ekspeditor şirkətlərinin bazarda fəaliyyət göstərməsi mübahisələndirilmir. Belə ki, 2021-ci ildə "ADY Ekspress" MMC və "ADY Konteyner" MMC-nin vaqon tiplərinə görə yükdaşıma göstəricilərinin həcmi (tonla) barədə arayışına əsasən, daşınan yüklərin cəmi 42,76% hissəsi "ADY Ekspress"

MMC, 4,60% hissəsi “ADY Konteyner” MMC tərəfindən həyata keçirilmişdir. Eyni zamanda “Təbii inhisarlar haqqında” Qanunun 10-cu maddəsinin 3-cü hissəsinə əsasən, özəl ekspeditor şirkəti ilə müqavilə bağlanmasından imtina halı məhkəmə araşdırması zamanı müəyyən edilməmişdir. Məhkəmə həm də nəzərə alır ki, iddiaçının törəmə cəmiyyətlərinə tariflər və güzəştlərin digər özəl ekspeditor şirkətlərinə tətbiq olunan tarif və güzəştlərdən fərqli qaydada aid edilməsi iş materialları ilə müəyyən olunmur, qeyd edilən hal cavabdeh tərəfindən də sübut edilməmişdir. Əksinə, iddiaçı tərəfindən məhkəməyə 2022-ci fraxt ili üçün “Daxili Yük daşımaları üzrə Tariflər Kitabı (Preyskurant)” və məhz ayrı-ayrı əmtəə növləri üzrə (məsələn, şəkər, karbamid, kükürd, kalium gübrə, neft və neft məhsulları və s.) güzəştlərin tətbiq olunmasına dair (daşıyıcı subyektlərə görə deyil) “Azərbaycan Dəmir Yolları” QSC-nin Tarif Komissiyasının iclasının çoxsaylı protokolları təqdim edilmişdir. Həmin protokollara əsasən, güzəştlərin qeyd edilən digər özəl ekspeditor şirkətlərinə (onların müraciətlərinə əsasən) şamil edildiyi, güzəştlərin subyektlərə deyil, daşınan mallara, marşrutun istiqamətinə və daşıma dövriyyəsinin həcminə münasibətdə tətbiq olunduğu müəyyən edilir. Həmçinin geri dönən vaqonların yüklü halda (adətən boş qayıdırlar) geri dönmələrini təmin etmək məqsədilə (yük göndərənlərdə maraq oyatmaq üçün) yüklü halda geri dönən vaqonlara xüsusi güzəştlər tətbiq olunur (vaqonların yüksüz geri qayıtmasının qarşısı alınması və alternativ yüklərin cəlb olunmasında yükdaşıyanların marağını artırmaq məqsədilə). Müəyyən olunmuş bütün endirimli (güzəştli) və xüsusi tariflər ekspeditorlara yüklərin bütün rejimlərdə (idxal, ixrac, tranzit və daxili) daşınması (ekspedisiyası) zamanı tətbiq olunur.

10. Mübahisələndirilən qərarın 1.2-ci və 1.3-cü bəndləri ilə bağlı (və ona uyğun olaraq verilmiş göstərişə münasibətdə) birinci instansiya məhkəməsi qeyd etmişdir ki, vaqon parkı ilə bağlı məhkəmə araşdırması zamanı müəyyən olundu ki, vaqon parkı ilə bağlı təqdim edilən məlumatlar zaman keçdikcə dəyişikliyə məruz qalır. Belə ki, iddia ərizəsi təqdim edilən 19.07.2022-ci il tarixə işlək vaqon parkının sayı 3848 olduğu halda, 20.10.2022-ci il tarixə təqdim edilən məlumata əsasən, həmin say 3823-dür. Ondan 1014 vaqon “ADY Ekspress” MMC-nin, 200 vaqon (qeyri-tip) “ADY Konteyner” MMC-nin balansına verilmişdir. Cavabdeh tərəfindən müəyyənləşdirilmişdir ki, iddiaçı tərəfindən 575 ədəd vaqon 4 özəl şirkətə (“Alliance Logistics” FZCO-ya ədədi 13 ABŞ dollarına, “Qazax Sement Zavodu” MMC-yə ədədi 14 və 17 manata, “Kontur Arxitektura Layihə Sənaye” QSC-yə 14 manata və “Globe Trans” MMC-yə 13 manata) icarəyə verilmişdir. Hesab edilir ki, vaqonların icarə qiymətləri cüzi olmuşdur, vaqonların icarəyə verilməsi müsabiqə əsasında həyata keçirilməlidir. İddiaçının Nizamnaməsinin 3.1-ci bəndinə əsasən, iddiaçının əsas məqsədlərindən biri dəmir yolu nəqliyyat vasitələri parkının, maddi-texniki bazasının müasirləşdirilməsindən və səmərəli istifadə olunmasından ibarətdir. Həmin Nizamnamənin 3.2.11-ci bəndinə əsasən, dəmir yolunda lokomotivlərin, yük və sərnişin vaqonlarının qanunvericiliyə uyğun olaraq satın alınması, onların istismarı və təmirinin təşkil edilməsi, habelə istifadə olunan texniki vasitələrin, dəmir yolunun hərəkət tərkibinin istehsalı, istismarı və saxlanması iddiaçının fəaliyyət istiqaməti olaraq müəyyən edilmişdir. Cavabdeh “Təbii inhisarlar haqqında” Qanunun 8-ci maddəsinin 2-ci hissəsinin 2.2-ci bəndinə əsasən, həmin vaqonların icarəyə verilməsi ilə bağlı razılığının alınmalı olmadığını mübahisələndirmir, tələb (göstəriş) iddiaçının fəaliyyəti zamanı vaqonların icarəyə verilməsinin müsabiqə əsasında həyata keçirilməsi (əslində keçirilməməsi) ilə bağlıdır. Cavabdeh qurum bildirir ki, qərarın qeyd edilən tələbi (göstəriş) Qanunun 8-ci maddəsinin 2-ci hissəsinin 2.3-cü bəndinə (əsas vəsaitlərin lizinq əsasında istehlakçılara verilməsi) və 2.4-cü bəndinə (təbii inhisar subyektləri tərəfindən bu Qanunla tənzimlənməyən fəaliyyət sahələrinə investisiyaların ayrılması) əsasən dövlət nəzarətinin təsiri dairəsinə düşür. İddiaçının Nizamnaməsinin 4.4-cü bəndinə əsasən, iddiaçının nizamnamə kapitalı 906061960 manatdır. İddiaçının icarəyə verdiyi həmin 575 ədəd

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 003

vaqonun ümumi balans dəyərinin iddiaçının nizamnamə kapitalının 10%-ni təşkil etməməsi cavabdeh tərəfindən mübahisələndirilmir. Məhkəmə qeyd edir ki, cavabdeh tərəfindən (real hesab edilən) icarə qiymətləri təhlil edilməmiş və icarə qiymətlərinin cüzi olması qənaəti əsaslandırılmamışdır. Digər tərəfdən, məhkəmə nəzərə alır ki, əsas vəsaitlərin lizinq əsasında istehlakçılara verilməsi icarədən fərqlənir. Belə ki, birinci halda (lizinq zamanı), həmin əsas vəsaitlər sonda dövlətin balansından çıxmış olur (lizinq alana əmlakı satın almaq hüququ verildiyindən), odur ki, qeyd edilən hərəkət üzərində qanunverici dövlət nəzarətini müəyyən edir. Vaqonların icarəyə verilməsi investisiya ayrılması kimi də qiymətləndirilə bilməz. Belə ki, "İnvestisiya fəaliyyəti haqqında" Qanunun 1.1.2-ci maddəsinə əsasən investisiya – gəlir əldə etmək məqsədilə sahibkarlıq fəaliyyəti obyektlərinə qoyulan pul vəsaitləri, qiymətli kağızlar, digər əmlak, o cümlədən əmlak hüquqları və pul dəyəri olan digər hüquqlardır. Odur ki, "Təbii inhisarlar haqqında" Qanunun 8-ci maddəsinin 1-ci hissəsinə əsasən istehlakçıların mənafeyinə təsir göstərə bilən və ya təbii inhisar vəziyyətindən sərbəst rəqabət vəziyyətinə iqtisadi cəhətdən əsaslandırılmış keçidə mane olan hal müəyyən edilmədən iddiaçının (daxili) fəaliyyətinin təşkili ilə bağlı göstəriş verilmişdir.

11. Mübahisələndirilən qərarın 1.4-cü və 1.5-ci bəndləri ilə bağlı (və ona uyğun olaraq verilmiş göstərişə münasibətdə) birinci instansiya məhkəməsi qeyd etmişdir ki, iddiaçının Nizamnaməsinin 3.2.28-ci bəndinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq beynəlxalq yük və sərnişin daşımalarına dair razılaşdırılmış tariflərin müəyyən edilmiş qaydada tətbiq edilməsi; 3.2.29-cu maddəsinə əsasən dəmir yolu daşımalarında (ölkədaxili və beynəlxalq yük və sərnişin daşımaları) göstərilən xidmətlərin tariflərinin, yığımların, habelə tariflər üzrə güzəştlərin müəyyən edilməsi iddiaçının fəaliyyət istiqamətlərinə aid edilmişdir. Daxili daşınmalarla bağlı iddiaçı tərəfindən "Daxili Yük daşımaları üzrə Tariflər Kitabı (Preyskurant)" hazırlanaraq müəyyən edilmişdir. Qeyd edilən "Tariflər"in Ümumi müddəalar bölməsində qeyd edilmişdir ki, daxili daşınma haqları aşağıdakı şərtlər əsasında hesablanır: Yükün adı və YHN (Yüklərin Hormonlaşdırılmış Nomenklaturası); Tarif məsafəsi; Göndərmənin növü (Vaqon göndərmələri; Konteyner göndərmələri; Kiçik və azçəkili göndərmələr); Göndərmənin çəkisi; Vaqonların və konteynerlərin tipi; Konteynerlərin kateqoriyası; Vaqon və konteynerlərin mənsubiyyəti; Preyskurantda nəzərə alınan digər şərtlər. İddiaçı tərəfindən təqdim edilən Tarif komissiyasının iclasının protokoluna əsasən güzəştlər müqavilə bağlanan şəxslərə (subyektlərə) münasibətdə deyil, mallara (yükə) görə müəyyən edilir və ekspeditorlara eyni qaydada şamil edilir. Tariflərə güzəştlərin tətbiq olunması ilə bağlı yuxarıda, mübahisələndirilən qərarın 1.1-ci bəndi ilə bağlı məhkəmənin qeydində məsələyə münasibət bildirilmişdir. Məhkəmə həm də iddiaçının aşağıda qeyd edilən dəlillərini nəzərə alır: "Azərbaycan Dəmir Yolları" QSC-nin 19.12.2017-ci il tarixli, 127/S nömrəli əmri ilə "Yük daşımaları üzrə Tarif Komissiyası" yaradılmışdır. "Azərbaycan Dəmir Yolları" QSC-nin 28.12.2018-ci il tarixli 152/S nömrəli əmri ilə 19.12.2017-ci il tarixli 28 nömrəli qərarı ilə təsdiq edilmiş "Daxili yükdaşımaları üzrə Tariflər (Preyskurant)" əlavə və dəyişikliklər nəzərə alınmaqla bu əmrə əlavə edilmiş yeni redaksiyada verilmişdir. "Azərbaycan Dəmir Yolları" QSC-nin 25.11.2019-cu il tarixli 178/S nömrəli əmri ilə Tarif Komissiyasının yeni tərkibi təsdiq edilmişdir. "Azərbaycan Dəmir Yolları" QSC-nin Tarif siyasətinə dair arayışına əsasən, "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən daxili, idxal, ixrac və tranzit daşımaların həyata keçirilməsi üçün tarif siyasəti aparılır. Belə ki, MDB ölkələrinin dəmiryol administrasiyalarının (Dəmir yollarının) 17.02.1993-cü ildə qəbul etdikləri Tarif Razılaşmasına əsasən hər il keçirilən Tarif Konfranslarında üzv ölkələr tərəfindən yeni fraxt ili üçün müvafiq dəyişikliklər və əlavələr edilərək, MDB üzvü olan ölkələrin Dəmir Yollarının Beynəlxalq daşınmalar üzrə Tarif Siyasəti hazırlanır. Tarif Konfransında qəbul edilən Tarif Siyasəti əsasında ADY-nin

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

Beynəlxalq Tarif Siyasəti hazırlanır. MDB üzvü olan ölkələrin Dəmir Yollarının Beynəlxalq Yükdaşımalar üzrə Tarif Siyasəti Beynəlxalq idarələrarası müqavilə sayılır. Beynəlxalq Tarif Siyasətinin müddəasına (1.2 bəndi) əsasən, MDB üzvü olan ölkələrin hər biri, öz iqtisadi maraqlarına uyğun olaraq, öz Tarif Siyasətində tariflərin artırılması və ya azaldılması üzrə müəyyən dəyişikliklər edə bilər. Bunları nəzərə alaraq, ADY-nin Yük daşımaları Departamentinin Tarif şöbəsi hər ilin sonunda növbəti fraxt ili üçün Tarif Razılaşması iştirakçısı olan dövlətlərə Beynəlxalq yükdaşımalarına edilmiş dəyişikliklər və əlavələr barədə məlumat təqdim edir. ADY-nin Daxili yükdaşımalar üzrə (Preyskurant) tarifləri ADY sədrinin 19.12.2017-ci il tarixli, 127/S nömrəli əmri ilə təsdiq edilmişdir. Respublika daxilində ADY-yə məxsus vaqon və konteynerlərdə və ya özəl vaqonlarda və konteynerlərdə yük daşıma haqlarının hesablanması üçün,1989-cu il tarixli 01 nömrəli Tarif Rəhbərliyinin 10-01 Preyskurantından istifadə edilmiş və müvafiq əmsallar tətbiq edilmişdir. Eyni zamanda, Tranzit Şurası xam neft, mazut, reaktiv mühərrik yanacağı və digər neft məhsullarının tranzit daşınması tariflərinin yuxarı həddi Azərbaycan Respublikası Prezidentinin 21.10.2015-ci il tarixli, 655 nömrəli Fərmanı ilə yaradılmış Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası tərəfindən müəyyən edilir və bu tariflər Şuranın 2 nömrəli qərarında öz əksini tapmışdır. Azərbaycan Respublikası Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin, TRASEKA, Transxəzər beynəlxalq nəqliyyat marşrutu (TBNM), Bakı-Tbilisi-Qars dəmiryolu xətti layihəsi, VİKİNQ kombinəedilmiş daşımalar qatarı layihəsinin, həmçinin Asiya-Sakit okean ölkələri - Çin - Qırğızıstan - Özbəkistan - Türkmənistan - Azərbaycan - Gürcüstan - Avropa ölkələri multimodal beynəlxalq marşrutunun inkişaf etdirilməsi məqsədilə iştirakçı ölkələr ilə birlikdə keçirilən görüşlər zamanı daşıma tarifləri ilə bağlı paritet şərtlər əsasında tariflər müəyyən edilir. ADY-nin daxili sənədləri (protokol və əmrləri) ilə müəyyən olunmuş bütün endirimli (güzəştli) və xüsusi tariflər, habelə ADY-nin tərəf qismində çıxış etdiyi beynəlxalq sənədlərlə müəyyən olunmuş bütün endirimli (güzəştli) və xüsusi tariflər ADY ilə daşıma müqaviləsi olan bütün ekspeditorlara şamil edilir. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 30.03.2021-ci il tarixli, 2548 nömrəli Sərəncamının 3.2-ci bəndinə əsasən beynəlxalq məsləhətçi şirkətlər (BCG və KPMG) cəlb edilməklə, mövcud müqavilə öhdəliklərinə riayət olunması şərtilə ADY-nin hüquq, maliyyə, vergi və kommersiya sahələrində fəaliyyətinin nəticələrinin diaqnostikası aparılmış və bir sıra sahələr üzrə risklər aşkar olunmuşdur. Həmin risklərin qarşısının alınması və ya minimallaşdırılması üzrə ADY-də Koordinasiya ofisi yaradılmış və Transformasiya proqramına dəstək istiqamətində beynəlxalq məsləhətçi şirkət olan BCG ilə məsləhət xidmətlərinin göstərilməsi haqqında 04.08.2021-ci il tarixli, 86380 nömrəli üçtərəfli (Azərbaycan İnvestisiya Holdinqi, ADY və BCG) müqavilə imzalanmışdır. Həmin müqavilə çərçivəsində ADY-nin fəaliyyət keyfiyyətinin yüksəldilməsi və səmərəliliyin artırılması məqsədilə beynəlxalq məsləhətçi şirkətin maya dəyərinin hesablanması üzrə apardığı təhlillər yekunlaşmaq üzrədir. Məsləhətçi şirkətin yekun qərarına və tövsiyələrinə əsasən ADY ilə daşıma tariflərinin optimallaşdırılması üzrə müvafiq işlər aparılacaqdır.

12. Mübahisələndirilən qərarın 1.6-cı və 1.7-ci bəndləri ilə bağlı (və ona uyğun olaraq verilmiş göstərişə münasibətdə) birinci instansiya məhkəməsi qeyd etmişdir ki, normativ hüquqi aktların layihələrinin dövlət orqanları tərəfindən hazırlanmasının tənzimlənməsi (maddə 27), normativ hüquqi aktların layihələrinin hazırlanmasının planlaşdırılması (maddə 41), normativ hüquqi aktların layihələrinin hazırlanması planlarının tərtib edilməsi qaydası (maddə 42), dövlət proqramlarının və normativ hüquqi aktların layihələrinin hazırlanması planlarının həyata keçirilməsinə nəzarət (maddə 43), normativ hüquqi aktın layihəsinin hazırlanması qaydası (maddə 45) "Normativ-hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanunu ilə tənzimlənir. İddiaçı normayaratma orqanı (normativ hüquqi aktları qəbul etmək səlahiyyətinə malik olan dövlət

orqanı) deyil. Layihələrin hazırlanması planlarının həyata keçirilməsinə onları təsdiq etmiş normayaratma orqanları nəzarət etməli olduğundan, məhkəmə müvafiq nəzarətin Azərbaycan Respublikası Prezidentinin Fərmanına və ya Əsasnaməsinə əsasən cavabdeh quruma həvalə edildiyini müəyyən etmir. Beləliklə, məhkəmə hesab edir ki, təbii inhisarları tənzimləyən orqan kimi cavabdeh qurumun qəbul etdiyi qərar və göstəriş təbii inhisar subyekti kimi iddiaçı tərəfindən həyata keçirilən hərəkətlər üzərində qanunla ("Təbii inhisarlar haqqında" Qanunun 8 və 9-cu maddələri ilə) müəyyən edilmiş nəzarətin hüdudlarından kənara çıxmışdır və bu da, Qanunun düzgün tətbiq edilməməsi ilə nəticələnmişdir. Məhkəmə qeyd edir ki, təbii inhisarları tənzimləyən orqanların istehlakçıların mənafeyinə təsir göstərə bilən və ya təbii inhisar vəziyyətindən sərbəst rəqabət vəziyyətinə iqtisadi cəhətdən əsaslandırılmış keçidə mane olan hərəkətlərin qarşısının alınması və ya aradan qaldırılması üçün dövlət nəzarətinin həyata keçirilməsi mexanizmləri (Qanunun 8-ci maddəsinin 2-ci hissəsindən əlavə olaraq), o cümlədən cavabdehin Azərbaycan Respublikası Prezidentinin 12.05.2020-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş Nizamnaməsi ilə müəyyən edilmişdir (məsələn, 4.0.6. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə hüquqi aktların layihələrini hazırlayıb Nazirliyə təqdim etmək; 4.0.7. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə rəy vermək, təhlillər, ümumiləşdirmələr, monitorinqlər və tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq; 4.0.8. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə apardığı monitorinqlər zamanı qanun pozuntuları aşkar edildikdə hüquq mühafizə və digər dövlət orqanları ilə əlaqəli fəaliyyət göstərmək və s.). Özəl ekspeditorlarla iddiaçı arasındakı münasibətlər tərəflər arasında bağlanmış yüklərin ekspedisiyası ilə bağlı xidmətlər haqqında müqavilələrlə tənzimlənir. Odur ki, aidiyyəti normativ hüquqi aktlar qəbul edilənədək cavabdehlə razılaşdırmaqla özəl ekspeditorların iddiaçı ilə münasibətlərini tənzimləyən və ekspeditor fəaliyyətinə dair şərtləri özündə əks etdirən müvəqqəti qaydaların müəyyən edilməsi tələbi (təbii inhisar subyektinin nəzarət olunmalı hərəkətlərinə aid olmadığından) dövlət nəzarətinin həyata keçirilməsinin forma və məzmununa uyğun deyil. Belə ki, təbii inhisar subyektinin öz fəaliyyətini təbii inhisarları tənzimləyən orqanla razılaşdırılmış qaydada həyata keçirməsi qanunun mətnindən irəli gəlmir. "Təbii inhisarlar haqqında" Qanunun 10-cu maddəsinin 2-ci hissəsinə əsasən, təbii inhisar subyekti təbii inhisar fəaliyyətini tənzimləyən orqanlara öz fəaliyyəti barədə qanunvericiliklə müəyyən edilmiş qaydada hesabatları, investisiya layihələrini, digər sənəd və məlumatı vaxtında təqdim etməli olduğu müəyyən edilir.

13. Mübahisələndirilən qərarın 1.8-ci bəndi ilə bağlı (və ona uyğun olaraq verilmiş göstərişə münasibətdə) birinci instansiya məhkəməsi qeyd etmişdir ki, qeyd edilən tələb "Təbii inhisarlar haqqında" Qanunun 8-ci maddəsinin 2-ci hissəsinə əsasən (təbii inhisar subyektinin nəzarət olunmalı hərəkətlərinə aid olmadığından) dövlət nəzarətinin həyata keçirilməsinin forma və məzmununa uyğun deyil. Bununla belə, iddiaçı tərəfindən təqdim edilmiş məlumata əsasən, "ADY SMART" əməliyyat sistemi dəmir yolları nəqliyyatı vasitəsi ilə yük daşımaları proseslərinin avtomatlaşdırılmasını nəzərdə tutan bir sistemdir. Bu proseslər ayrı-ayrı modullar şəklində işlənib hazırlanmış və bu modullar vahid bir platforma üzərində cəmlənərək, bir-biri ilə əlaqəli şəkildə fəaliyyət göstərir. Modullar funksionallığına görə əsas və köməkçi modullara ayrılır. Köməkçi modullar əsasən lüğətlərdən (məlumat kitabçası) ibarətdir ki, bu lüğətlərin böyük əksəriyyəti MDB çərçivəsində qəbul edilmiş və hər bir dəmiryolları administrasiyasında tətbiq olunan standart lüğətlər, az bir qismi isə ADY-yə məxsus lüğətlərdir. Hazırda sistemdə qeydiyyatdan keçmiş 2200-ə yaxın istifadəçi vardır, bunlardan 450 nəfəri müştəridir. İstifadəçilərin böyük əksəriyyəti yerlərdə əməliyyatları icra edən əməkdaşlardır ki, onlar köhnə qayda üzrə yerinə yetirdikləri əməliyyatları paralel olaraq "ADY SMART"-a daxil edirlər. Platformada müştəri qeydiyyatı modulu, müştəri kabineti modulu, yük daşımaları sifarişi modulu, yük və kommersiya modulu, maliyyə modulu mövcuddur. Hər modul üzrə həllini tapmış və prosesdə olan

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 003

məsələlər var. Beynəlxalq təcrübə nəzərə alınmaqla, maliyyə modulunun tam istifadəyə verilməsi və təkmilləşdirilməsi istiqamətində ADY tərəfindən işlər davam etdirilir. Sözügedən modulun müvafiq sınaqlardan keçdikdən sonra, tətbiq edilməsi nəzərdə tutulur. Həmin platformada sifarişlərin qəbul edilməsi, göstərilən xidmətlərə görə daşıma tariflərinin (o cümlədən, idxal, ixrac və tranzit rejimləri üzrə daşman yüklərin baza tarifləri) və stansiya yığımlarının, yüklərin daşınmasına görə ödəniləcək ümumi dəyərin hesablanma qaydası (elektron kalkulyator) əks olunmuşdur.

14. Mübahisələndirilən qərarın 1.9-cu bəndi ilə bağlı (və ona uyğun olaraq verilmiş göstərişə münasibətdə) birinci instansiya məhkəməsi qeyd etmişdir ki, həmin tələblə bağlı yuxarıda, mübahisələndirilən qərarın 1.2-ci və 1.3-cü bəndləri ilə bağlı məhkəmənin qeydində məsələyə münasibət bildirilmişdir. Əlavə olaraq məhkəmə qeyd edir ki, vaqon parklarının icarəsi hər bir halda deyil, “Təbii inhisarlar haqqında” Qanunun 8-ci maddəsinin 2-ci hissəsinin 2.2-ci bəndinə səbəb olduğu halda (təbii inhisar subyektinin bütövlükdə həmin əmtəənin istehsalına (satışına) cəlb olunmuş əsas vəsaitlərin balans dəyəri həmin subyektin təsdiq olunmuş son balansı üzrə nizamnamə kapitalının dəyərinin 10%-dən çox olarsa) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25.12.2001-ci il tarixli, 201 nömrəli qərarı ilə təsdiq edilmiş “Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması” Qaydasının təsiri altına düşə bilər.

15. Mübahisələndirilən qərarın 1.10-cu bəndi ilə bağlı (və ona uyğun olaraq verilmiş göstərişə münasibətdə) birinci instansiya məhkəməsi qeyd etmişdir ki, mübahisə olunmur ki, qeyd edilən hal üzrə antiinhisar qanunvericiliyinin pozulması haqqında işə baxılması zamanı araşdırma aparılmamışdır. “Təbii inhisarlar haqqında” Qanunun 10-cu maddəsinin 2-ci hissəsinə əsasən, təbii inhisar subyekti təbii inhisar fəaliyyətini tənzimləyən orqanlara öz fəaliyyəti barədə qanunvericiliklə müəyyən edilmiş qaydada hesabatları, investisiya layihələrini, digər sənəd və məlumatı vaxtında təqdim etməlidir. Qanunun mətnində təbii inhisar subyektinin fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə təbii inhisar fəaliyyətini tənzimləyən orqanlara təkliflərin verilməsi müəyyən olunmur. Odur ki, qeyd edilən tələb dövlət nəzarətinin forma və məzmununa uyğun deyil.

16. Mübahisələndirilən qərarın 2-ci bəndi ilə bağlı birinci instansiya məhkəməsi qeyd etmişdir ki, iddiaçının Nizamnaməsində Müşahidə şurasının səlahiyyətləri nəzərdə tutulmamışdır. Nizamnamənin 7.2-ci bəndinə əsasən, İdarə Heyəti qanunvericiliklə və bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətləri daxilində Cəmiyyətin idarə edilməsi ilə bağlı bütün məsələləri həll edir. “Azərbaycan Dəmir Yolları” QSC-nin Müşahidə Şurasının tərkibi Azərbaycan Respublikası Prezidentinin 30.03.2021-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri (Müşahidə Şurasının sədri), Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borclarının və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyinin direktoru, Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktoru, Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müşavirindən (Müşahidə Şurasının üzvləri) ibarət tərkibdə təsdiq edilmişdir. “Azərbaycan Dəmir Yolları” QSC-nin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 20.07.2009-cu il tarixli, 383 nömrəli Sərəncamının 3.2-ci bəndinə əsasən, Cəmiyyətin Müşahidə Şurasının səlahiyyətləri aşağıdakılardır: 3.2.1. Cəmiyyətin uzunmüddətli inkişaf strategiyasını təsdiq etmək; 3.2.2. Cəmiyyətin xərclər və gəlirlər smetasını təsdiq etmək və onun icrasına nəzarəti həyata keçirmək; 3.2.3. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına dair ümumi yığıncağa təkliflər vermək; 3.2.4. aidiyyəti şəxslərlə bağlanması nəzərdə tutulan və dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş)

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 003

faizinədək hissəsini təşkil edən əqdləri təsdiq etmək; 3.2.5. mövcud normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, Cəmiyyətin aktivlərinin idarəetməyə verilməsi və özəlləşdirilməsi ilə bağlı əqdlərin bağlanmasına razılıq vermək; 3.2.6. Cəmiyyətin fəaliyyətinin ayrı-ayrı sahələri üzrə siyasəti, daxili qaydaları, habelə filial və nümayəndəliklərinin əsasnamələrini təsdiq etmək; 3.2.7. Cəmiyyətin korporativ strukturunun və ştat cədvəlinin təsdiq edilməsinə razılıq vermək; 3.2.8. Cəmiyyətin Audit Komitəsini və digər komitələrini yaratmaq, onların əsasnamələrini təsdiq etmək, rəhbərlərini və üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək; 3.2.9. bu Sərəncamın 2-ci hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Cəmiyyətin Nizamnaməsi və Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək. Qeyd edilən hissədə qərar hüquqi nəticə yaratmasa da, məhkəmə qeyd edir ki, iddiaçının Müşahidə Şurası Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona aid edilmiş səlahiyyətlərini müvafiq tövsiyədən asılı olmayaraq həyata keçirməlidir.

17. Birinci instansiya məhkəməsi qeyd edilənləri ümumiləşdirərək müəyyən etmişdir ki, mübahisələndirilən qərarda və ona müvafiq verilmiş göstərişdə qanun pozuntusunun aradan qaldırılması deyil, müəyyən tədbirlərin görülməsinin təmin edilməsi tapşırılmışdır. Təbii inhisarları tənzimləyən orqan kimi cavabdeh qurumun qərarı və göstərişi “Təbii inhisarlar haqqında” Qanunun 9-cu maddəsinə uyğun olaraq iddiaçının (təbii inhisar subyekti kimi) həmin Qanunun 8-ci maddəsinin 2-ci hissəsində sadalanmış təbii inhisara aid edilən fəaliyyət növləri ilə bağlı hərəkətlərin həyata keçirilməsi ilə bağlı olmamış (həmin hərəkətlərin dairəsi maddənin yuxarıda qeyd edilən mətnində göstərilmişdir), qərarda iddiaçının konkret hansı pozuntuya yol verdiyi öz əksini tapmamış, nizama saldığı və ya həll etdiyi məsələlər dəqiq göstərilməmişdir. Bu səbəbdən məhkəmə hesab edir ki, mübahisələndirilən qərar və göstəriş, maddi hüquq normalarının (“Təbii inhisarlar haqqında” Qanunun) düzgün tətbiq edilməməsi nəticəsində qəbul edildiyindən qanunsuzdur və ləğv olunmalıdır.

18. Cavabdeh apellyasiya şikayəti verərək, həmin qərarın ləğv edilməsini və iddianın təmin olunmamasını xahiş etmişdir.

***apellyasiya instansiyası məhkəməsində icraat***

19. Bakı Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının (hakimlər: Xəyalə Cəmilova /sədrlik edən və məruzəçi/, Aytən Oruczadə və Rəşid Səmədov) 20 sentyabr 2023-cü il tarixli, 2-1(103)-1280/2023 nömrəli qərarı ilə cavabdehin apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qərarı dəyişdirilmədən saxlanılmışdır.

20. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin hüquqi mövqeyi ilə razılaşmış və əlavə olaraq qeyd etmişdir ki, cavabdeh orqan iddiaçıda yoxlamanın keçirilməsini “Təbii inhisarlar haqqında” Qanunun 8-ci maddəsində nəzərdə tutulan dövlət nəzarəti qaydasında və ayrı-ayrı şirkətlər tərəfindən cavabdehə edilmiş müraciətlər əsasında açılmış inzibati icraatla əsaslandırmışdır. İşin apellyasiya baxışı zamanı Kollegiya tərəfindən cavabdeh orqandan inzibati icraat işinin materialları tələb edilmişdir. Təqdim edilmiş inzibati icraat materiallarında olan adı çəkilən şirkətlər tərəfindən edilmiş müraciətlərin məzmunundan görünür ki, həmin müraciətlər iddiaçının hər hansı qanunsuz hərəkəti ilə bağlı deyil, başqa-başqa şirkətlərin həyata keçirdikləri fəaliyyətlə bağlı olmuşdur. Halbuki hazırkı işdə cavabdeh orqan inzibati icraatın başlanmasının əsası kimi məhz adları qeyd olunan şirkətlərin iddiaçı barəsində müraciətlərinin olması ilə əsaslandırmışdır. Qeyd olunmalıdır ki, apellyasiya icraatı dövründə bu məsələ ilə bağlı cavabdeh orqana iddiaçıda müvafiq yoxlamanın aparılmasının əsası kimi istinad olunan məhz hansı şirkətlərin müraciətinin olduğu, belə

müraciətlər vardırsa, onlara baxılıb-baxılmadığı, bu barədə həmin şirkətlərə cavabdeh tərəfindən hansı cavabların verilməsi ilə bağlı sənədləri məhkəməyə təqdim etmək təklif olunsa da, sonuncu tərəfindən belə sənədlər məhkəməyə təqdim olunmamışdır. Qanunvericiliyə əsasən, hüquqi və ya fiziki şəxsin müraciəti inzibati icraatın başlanma əsaslarından biri kimi müəyyən edilmişdir. Hazırkı işdə də cavabdeh orqan onun tərəfindən inzibati icraatın başlanmasını məhz bu səbəblə əsaslandırır. Lakin yuxarıda da qeyd olunduğu kimi, cavabdeh orqanın əsas götürdüyü müraciətlər onların məzmunundan da göründüyü kimi, iddiaçı ilə bağlı olmamışdır.

21. Cavabdeh kassasiya şikayəti verərək, həmin qərarın ləğv edilməsini və iddianın təmin olunmamasını xahiş etmişdir.

## KASSASİYA ŞİKAYƏTİNİN VƏ ONA QARŞI ETİRAZIN DƏLİLLƏRİ

***kassasiya şikayətinin dəlilləri***

22. Cavabdehin kassasiya şikayətinin dəlilləri mahiyyətcə onun iddiaya qarşı etirazının və apellyasiya şikayətinin dəlilləri ilə eynilik təşkil edir.

***kassasiya şikayətinə qarşı etirazın dəlilləri***

23. Kassasiya şikayətinə qarşı etiraz təqdim edilməmişdir.

## TƏTBİQ EDİLƏN HÜQUQ

**24. “Antiinhisar fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu**

Maddə 1. Qanun inhisarçılıq fəaliyyətinin qarşısının alınmasının, məhdudlaşdırılmasının və aradan qaldırılmasının təşkilati və hüquqi əsaslarını müəyyən edir.

Maddə 4. Bu Qanunun məqsədləri üçün istifadə edilən əsas anlayışlar aşağıdakı kimi qəbul olunur:

inhisarçılıq fəaliyyəti – inhisarçılığın bu və ya digər forması olub, təsərrüfat subyektlərinin, yaxud icra hakimiyyəti və idarəetmə orqanlarının rəqabətə yol verməməyə, onu məhdudlaşdırmağa, yaxud aradan qaldırmağa yönəldilmiş fəaliyyəti;

təbii inhisar – istehsalın texnoloji xüsusiyyətlərinə görə rəqabətin olmadığı şəraitdə tələbatın ödənilməsi daha səmərəli olan və inhisar subyektlərinin istehsal etdiyi (satdığı) əmtəə istehlakda başqa əmtəə ilə əvəz edilə bilməyən əmtəə bazarının vəziyyəti.

Maddə 11.1. Bu və ya digər malların istehsalı və xidmətlər sahəsində özlərinin təbii inhisar mövqeyindən sui-istifadə edərək ölkənin, təsərrüfat subyektlərinin mənafelərinə və istehlakçıların hüquqlarına ziyan vuran idarəetmə orqanlarının və təsərrüfat subyektlərinin fəaliyyəti üzərində antiinhisar nəzarəti xüsusi formada həyata keçirilir.

**25. “Təbii inhisarlar haqqında” Azərbaycan Respublikasının Qanunu**

Maddə 1. Qanunun məqsədi

Bu Qanun Azərbaycan Respublikasında təbii inhisarlarla bağlı dövlət tənzimlənməsinin təşkilati və hüquqi əsaslarını müəyyən edir. Təbii inhisar subyektləri ilə istehlakçıların maraqlarının uzlaşdırılmasını təmin etməyə yönəldilmişdir.

Maddə 2. Qanunun tənzimlədiyi münasibətlər

Bu Qanun təbii inhisar subyektlərinin, istehlakçıların, müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının iştirak etdiyi məhsul, iş, xidmət (bundan sonra əmtəə) bazarlarında yaranan münasibətləri tənzimləyir. Bu Qanunun müəyyən etdiyi hallar istisna olmaqla, onun müddəaları təbii inhisar subyektlərinin təbii inhisara aid olmayan fəaliyyət sahələrinə şamil edilmir.

Maddə 4. Əsas anlayışlar

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 003

Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

təbii inhisar – istehsalın texnoloji xüsusiyyətlərinə görə rəqabətin olmadığı şəraitdə tələbatın ödənilməsi daha səmərəli olan və inhisar subyektlərinin istehsal etdiyi (satdığı) əmtəə istehlakda başqa əmtəə ilə əvəz edilə bilməyən əmtəə bazarının vəziyyəti;

təbii inhisar subyekti – təbii inhisar şəraitində əmtəə istehsalı (satışı) ilə məşğul olan təsərrüfat subyekti;

istehlakçı – təbii inhisar subyektinin istehsal etdiyi (satdığı) əmtəəni əldə edən fiziki və ya hüquqi şəxs.

Maddə 5. Təbii inhisar subyektlərinin fəaliyyət sahələri

1. Təbii inhisar subyektlərinin fəaliyyət sahələri aşağıdakılardır:

1.4. Magistral və yerli dəmir yolu xətlərinin, yol qurğu və tikililərin istismarı, hərəkəti idarəetmə və hərəkət təhlükəsizliyi fəaliyyəti, dəmir yolu stansiyaları və sərnişin vağzalları xidmətləri;

3. Təbii inhisar subyektlərinin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 8. Təbii inhisar subyektlərinin fəaliyyətinə dövlət nəzarəti

1. Təbii inhisarları tənzimləyən orqanlar bu Qanuna və Azərbaycan Respublikasının digər normativ-hüquqi aktlarına uyğun olaraq təbii inhisar subyektlərinin fəaliyyətinə dövlət nəzarətini həyata keçirirlər. Təbii inhisarları tənzimləyən orqanlar istehlakçıların mənafeyinə mənfi təsir göstərə bilən və ya təbii inhisar vəziyyətindən sərbəst rəqabət vəziyyətinə iqtisadi cəhətdən əsaslandırılmış keçidə mane olan hərəkətlərin qarşısının alınması və ya aradan qaldırılması üçün bu Qanunla və digər normativ-hüquqi aktlarla müəyyən edilmiş tədbirlər görürlər.

2. Təbii inhisarları tənzimləyən orqan təbii inhisar subyektləri tərəfindən həyata keçirilən aşağıdakı hərəkətlər üzərində nəzarət edir:

2.1. Barəsində bu Qanuna uyğun olaraq dövlət tənzimlənməsi tətbiq edilməyən əmtəənin istehsalı (satışı) üçün əsas vəsaitlərə mülkiyyət və ya istifadə hüququnun əldə edilməsi (əgər təbii inhisar subyektinin bütövlükdə həmin əmtəələrin istehsalına cəlb olunmuş əsas vəsaitlərin balans dəyəri bu subyektin təsdiq olunmuş son balansı üzrə nizamnamə kapitalının dəyərinin 10%-dən çox olarsa);

2.2. Barəsində bu Qanuna uyğun olaraq dövlət tənzimlənməsi tətbiq edilən əmtəənin istehsalı (satışı) üçün əsas vəsaitlərin satışı, icarəyə verilməsi və ya digər hərəkətlər nəticəsində təbii inhisar subyektlərinin mülkiyyət və ya istifadə hüququnun digər təsərrüfat subyektlərinə keçməsi (əgər təbii inhisar subyektinin bütövlükdə həmin əmtəənin istehsalına (satışına) cəlb olunmuş əsas vəsaitlərin balans dəyəri həmin subyektin təsdiq olunmuş son balansı üzrə nizamnamə kapitalının dəyərinin 10%-dən çox olarsa);

2.3. Əsas vəsaitlərin lizinq əsasında istehlakçılara verilməsi;

2.4. Təbii inhisar subyektləri tərəfindən bu Qanunla tənzimlənməyən fəaliyyət sahələrinə investisiyaların ayrılması.

3. Təbii inhisar subyektləri bu maddənin 2-ci hissəsində göstərilən hərəkətlərin edilməsinə razılıq almaq üçün təbii inhisarları tənzimləyən orqana müraciət etməlidirlər. Müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

4. Əgər müraciətdə göstərilən hərəkətlər istehlakçıların mənafelərinə mənfi təsir göstərə bilərsə, habelə müraciət edən tərəfindən zəruri olan sənədlər təqdim edilməyibsə və ya həmin sənədlərdə göstərilən məlumat həqiqətə uyğun gəlməzsə, bu halda təbii inhisarları tənzimləyən orqan bu hərəkətlərə razılıq verməkdən imtina edə bilər.

Maddə 9. Təbii inhisarları tənzimləyən orqanların səlahiyyətləri

Təbii inhisarları tənzimləyən orqanların aşağıdakı səlahiyyətləri vardır:

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 003

bu Qanunun tələblərinə riayət olunmasına öz səlahiyyətləri daxilində nəzarət etmək;

təbii inhisar subyektlərinin siyahısının müəyyən edilməsi məqsədi ilə müvafiq icra hakimiyyəti orqanına təkliflər vermək;

təbii inhisar subyektlərinin hər biri üçün tətbiq edilməli olan tənzimləmə üsullarını müəyyən etmək;

tənzimləmə üsullarının tətbiqi haqqında təbii inhisar subyektləri tərəfindən yerinə yetirilməsi məcburi olan qərar qəbul etmək;

qanunvericilikdə nəzərdə tutulmuş səlahiyyətləri həyata keçirmək üçün təbii inhisar subyektlərinin vəzifəli şəxslərindən məlumat almaq;

qanunvericilikdə nəzərdə tutulmuş qaydada öz səlahiyyətləri daxilində bu Qanunun pozulması ilə bağlı məsələlərə baxmaq və qərarlar qəbul etmək;

təbii inhisar subyektlərinə və onların vəzifəli şəxslərinə cərimələr (maliyyə sanksiyaları) tətbiq etmək;

təbii inhisar subyektlərinə qanun pozuntusu nəticəsində əldə edilmiş mənfəətin büdcəyə ödənilməsi, xidmət edilməsi məcburi hesab edilən istehlakçılarla müqavilə bağlanması, müqavilələrə dəyişikliklər edilməsi haqqında icrası məcburi olan göstərişlər vermək;

təbii inhisar subyektlərinin fəaliyyətinin tənzimlənməsinin maliyyə məsələlərinin həlli ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanına müraciət etmək;

qanunvericilikdə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

**26. “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanunu**

Maddə 2.0.1. inzibati orqan – Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları, onların yerli (struktur) və digər qurumları, bələdiyyələr, habelə qanuna əsasən inzibati akt qəbul etmək səlahiyyəti verilmiş hər hansı fiziki və ya hüquqi şəxs;

Maddə 2.0.2. inzibati akt – inzibati orqan tərəfindən ümumi (publik) hüquq sahəsinə aid olan müəyyən (konkret) məsələni nizama salmaq və ya həll etmək məqsədilə qəbul edilmiş və ünvanlandığı hüquqi və ya fiziki şəxs (şəxslər) üçün müəyyən hüquqi nəticələr yaradan qərar, sərəncam və ya digər növ hakimiyyət tədbiridir;

Maddə 11.1. İnzibati orqanlar qanunun tələblərinə riayət etməyə borcludurlar.

Maddə 11.2. İnzibati orqanlar yalnız qanunla nəzərdə tutulmuş hallarda və qaydada şəxsin hüquq və azadlıqlarına müdaxilə edə bilərlər.

Maddə 17. Fiziki və ya hüquqi şəxslərin hüquqi statusuna (prinsipial hərəkət azadlığına) hər hansı müdaxiləni nəzərdə tutan tədbirlər inzibati orqanın güddüyü qanuni məqsədə mütənasib olmalı, həmin məqsədə çatmaq üçün öz məzmunu, yeri, vaxtı və əhatə etdiyi şəxslərin dairəsi baxımından zəruri və yararlı olmalıdır.

Maddə 24.1. İnzibati orqan inzibati icraat zamanı işin düzgün həlli üçün əhəmiyyət kəsb edən bütün faktiki halları hərtərəfli, tam və obyektiv araşdırmağa borcludur.

Maddə 24.2. İnzibati orqan maraqlı şəxslərin xeyrinə olan halların araşdırılmasından və nəzərə alınmasından imtina edə bilməz.

Maddə 24.3. İnzibati icraat zamanı işin bütün hallarının araşdırılması inzibati orqanın xidməti vəzifəsindən irəli gəlir. Araşdırmanın üsulu və həcmi inzibati orqan tərəfindən müəyyən edilir. İnzibati orqan maraqlı şəxslərin izahatları ilə və təqdim etdiyi sübutlarla bağlı deyildir.

Maddə 24.4. Təqdim olunmuş sübutlar yetərli olmadıqda, inzibati orqan öz təşəbbüsü ilə əlavə sübutlar toplamağa borcludur.

Maddə 58.3. İnzibati aktda onun ünvanlandığı hüquqi və ya fiziki şəxslər, nizama saldığı və ya həll etdiyi məsələlər dəqiq göstərilməlidir.

Maddə 61.1. Yazılı və ya yazılı formada təsbit olunmuş inzibati akt yazılı şəkildə əsaslandırılmalıdır.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 003

Maddə 61.2. Əsaslandırma zamanı işin faktiki və hüquqi halları və bu halları təsdiq və ya rədd edən sübutlar, habelə inzibati akt qəbul edilərkən istinad olunan qanunlar və digər normativ hüquqi aktlar göstərilməlidir.

Maddə 67.1. İnzibati orqan tərəfindən inzibati icraat haqqında hüquq normalarının və ya maddi hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi nəticəsində qəbul edilmiş inzibati akt qanunsuz sayılır.

Maddə 67.2. Qanunsuz inzibati akt həmin aktı qəbul etmiş inzibati orqan, subordinasiya baxımından yuxarı inzibati orqan və ya qanunla şikayətə baxmaq səlahiyyətinə malik olan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən və yaxud məhkəmə qaydasında ləğv oluna bilər.

Maddə 67.3. Qanunsuz əlverişsiz inzibati akt hər bir halda ləğv olunmalıdır. Azərbaycan Respublikasının müvafiq qanunları ilə başqa qayda nəzərdə tutulmamışdırsa, qanunsuz əlverişsiz inzibati aktın ləğv olunması həmin aktın qüvvəyə mindiyi andan yaranmış hüquqi nəticələri aradan qaldırır.

**27. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi**

Maddə 2.2. İnzibati məhkəmə icraatı qaydasında aşağıdakı iddialara baxılır:

2.2.1. şəxsin hüquq və vəzifələri ilə bağlı inzibati orqan tərəfindən qəbul edilmiş inzibati aktın mübahisələndirilməsinə (ləğv olunmasına və ya dəyişdirilməsinə) dair iddialara (mübahisələndirmə haqqında iddia);

Maddə 32.1. Mübahisələndirmə haqqında iddia vasitəsi ilə iddiaçı inzibati aktın ləğv olunmasını və ya dəyişdirilməsini məhkəmədən tələb edə bilər. Mübahisələndirmə haqqında iddia mübahisə edilən inzibati aktın icra olunması nəticəsində meydana gəlmiş nəticələrin aradan qaldırılması tələbini özündə əks etdirən əlavə ərizə ilə birlikdə də qaldırıla bilər.

Maddə 35.1. Bu Məcəllədə başqa qayda nəzərdə tutulmamışdırsa, iddiaçının iddia ərizəsində inzibati aktın qəbul edilməsi və ya qəbul edilməsindən imtina olunması, yaxud inzibati orqanın hərəkəti və ya hərəkətsizliyi nəticəsində onun hüquqlarının və qanunla qorunan maraqlarının pozulduğunu əsaslandırdığı hallarda mübahisələndirmə haqqında, məcburetmə haqqında, öhdəliklərin icrası haqqında və müəyyən hərəkətləri etməkdən çəkinməyə dair iddia mümkün sayılır.

Maddə 91. Ali Məhkəmə mübahisə ilə bağlı işə şikayət həddində baxır və yalnız apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Maddə 94.1. Kassasiya şikayəti məhkəmə qərarının tam formada təqdim olunduğu gündən 1 ay, məhkəmə qərardadının təqdim olunduğu gündən, həmçinin bu Məcəllənin 131.3-cü və 132.3-cü maddələrində nəzərdə tutulmuş hallarda 10 gün müddətində müvafiq apellyasiya instansiyası məhkəməsi vasitəsi ilə verilir.

Maddə 94.2. Şikayətdə mübahisə edilən məhkəmə qərarı və ya qərardadı barədə məlumatlar göstərilməli və şikayət əsaslandırılmalıdır.

Maddə 94.4. Şikayətin əsaslandırma hissəsində şikayəti verən şəxsin tələbi göstərilməlidir.

Maddə 96.8. Şikayət əsassızdırsa, Ali Məhkəmə şikayətin təmin edilməməsi barədə qərar qəbul edir.

Maddə 96.9. Ali Məhkəmə apellyasiya instansiyası məhkəməsinin qərarını (qərardadını) dəyişdirmədən qüvvədə saxlaya bilər, dəyişdirə bilər və ya ləğv edərək (tam və ya qismən) yeni qərar qəbul edə bilər. Apellyasiya instansiyası məhkəməsinin qərarı, həmin qərara qarşı verilmiş şikayətlə tələb edilən həddə (həcmdə) dəyişdirilə bilər.

Maddə 98.1. Ali Məhkəmənin inzibati mübahisələrə dair iş üzrə qərarı qətidir.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 003

**28. "İnzibati məhkəmə icraatında iddianın mümkünlüyünə dair" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 10 aprel 2015-ci il tarixli, 5 nömrəli qərarı**

1.1. Məhkəmələr nəzərə almalıdırlar ki, inzibati mübahisələrə dair iddianın əsaslılığının yoxlanılması üçün zəruri ilkin şərt onun mümkün olmasıdır.

1.2. İddianın əsaslılığının yoxlanılmasına yönəlmiş fəaliyyəti zamanı məhkəmə cavabdehə qarşı irəli sürülmüş maddi-hüquqi tələbin mövcud olub-olmamasını araşdırmaqla mahiyyəti üzrə qərar qəbul edir.

1.3. Mümkünlük şərtləri iddiaya mahiyyəti üzrə baxmağa imkan verən şərtlərin mövcudluğunun yoxlanılmasını nəzərdə tutur.

1.4. Ona görə də, iddianın mümkünlüyü həmişə onun əsaslılığının yoxlanılmasından əvvəl aparılan hüquqi dəyərləndirmədir.

2.1. Mümkünlük şərtlərinin mövcudluğunu məhkəmə tərəflərin bildirməsindən asılı olmayaraq özünün xidməti vəzifəsinə görə yoxlamalıdır.

2.2. İşin araşdırılması prinsipi bu hallara da şamil olunur. İPM-in 12.1-ci maddəsinə görə məhkəmə proses iştirakçılarının izahatları, ərizə və təklifləri ilə, onların təqdim etdikləri sübutlarla və işdə olan digər materiallarla kifayətlənməyərək, mübahisənin düzgün həlli üçün əhəmiyyət kəsb edən bütün faktiki halları xidməti vəzifəsinə görə araşdırmağa borcludur.

2.3. Məhkəmələr ilk növbədə iddiaçının həmin iddia tələbi üzrə subyektiv hüququnun olub-olmamasını, cavabdehin həmin iddiaya cavab verməli olub-olmamasını, qanunvericilikdə nəzərdə tutulduğu hallarda cavabdehin imtinasının olub-olmamasını, İPM-də nəzərdə tutulmuş iddia müddətlərinə riayət edilib-edilmədiyini, prosessual həmiştirakçılığın yol verilənliyini, tələblərin bir iddiada birləşdirilməsinin mümkünlüyünü İPM-in 37-ci maddəsinə uyğun yoxlamalıdırlar.

8.6. İddianın mümkünlük şərtləri icraatın bütün mərhələlərində yoxlanılmalı, həmin şərtlər mübahisənin mahiyyəti üzrə qərar çıxırıldığı anda mövcud olmalıdırlar.

9. Məhkəmələrin diqqətinə çatdırılsın ki, İPM-də nəzərdə tutulmuş mümkünlük şərtləri ilə yanaşı ayrı-ayrı iddia növləri üzrə tələb olunan mümkünlük şərtlərinin (məsələn, məcburetmə, öhdəliyin icrası və vurulmuş ziyana görə kompensasiyanın ödənilməsi haqqında iddialarda iddiaçının müvafiq ərizə ilə əvvəlcə inzibati orqana müraciət etməsi, iddianın verilməsi müddətinə əməl olunması və s.) də mövcudluğu yoxlanılmalıdır.

12. İnzibati mübahisələrin predmetini inzibati orqanlar tərəfindən qəbul edilmiş və ya qəbul edilməsi arzu edilən inzibati aktlar, habelə inzibati orqanların fiziki və hüquqi şəxslərə münasibətdə faktiki xarakterli hərəkətləri təşkil edir.

13. İnzibati orqan tərəfindən qəbul edilmiş istənilən aktı inzibati akt hesab etmək olmaz. "İnzibati icraat haqqında" Qanunun 2.0.2-ci maddəsində təsbit edildiyi kimi, qəbul edilmiş akt yalnız o, zaman inzibati akt kimi qiymətləndirilə bilər ki, o inzibati orqan tərəfindən ümumi (publik) hüquq sahəsinə aid müəyyən (konkret) məsələni nizama salmaq və ya həll etmək məqsədi və hakimiyyət səlahiyyətlərinin tətbiqi ilə əlaqədar qəbul edilsin və ünvanlandığı şəxslər üçün müəyyən hüquqi nəticələr yaratsın.

14.1. İnzibati aktlar hüquqi status yaratmaq, dəyişdirmək və ya xitam vermək xüsusiyyətinə malikdirlər.

14.2. İnzibati orqanın daxili fəaliyyətinin həyata keçirilməsi nəticəsində qəbul edilmiş və xaricə münasibətdə hər hansı təsir gücünə malik olmayan idarədaxili aktlar inzibati akt hesab edilmədiyindən onların mübahisələndirilməsinə dair iddialar mümkün sayılmamalıdır.

### KASSASİYANIN MÜMKÜNLÜYÜ, KASSASİYA BAXIŞININ HƏDLƏRİ

29. Kassasiya şikayəti mümkündür. Şikayət vaxtında verilmiş, formal baxımdan lazımi qaydada əsaslandırılmış və şikayətçinin tələbləri göstərilmişdir.

30. Apellyasiya instansiyası məhkəməsinin qərarı bütövlükdə mübahisələndirildiyi üçün hazırkı icraat çərçivəsində məhkəmə aktının qanuniliyi və əsaslılığı tam olaraq yoxlanılacaqdır.

### KASSASİYA İNSTANSİYASI MƏHKƏMƏSİNİN MÖVQEYİ

31. Məhkəmə kollegiyası iş üzrə materialları və kassasiya şikayətinin dəlillərini araşdıraraq hesab edir ki, kassasiya şikayəti məhkəmə qərarının ləğvinin tələb edildiyi hissədə qismən əsaslıdır. Apellyasiya instansiyası məhkəməsi tərəfindən həmin hissədə işə baxılan zaman prosessual hüquq normalarının tələblərinə riayət edilməmiş, hazırkı mübahisəyə münasibətdə iddianın mümkünlük şərtlərinin ödənilməsi ilə bağlı məsələ obyektiv araşdırma prinsipinin tələbləri baxımından hərtərəfli yoxlanılmamışdır. Bu baxımdan apellyasiya instansiyası məhkəməsinin qərarı qismən, yəni cavabdehin "Antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə işə baxılmasının nəticələri haqqında" 21.06.2022-ci il tarixli qərarının 2-ci bəndinin (tövsiyələr bəndinin) və "Antiinhisar qanunvericiliyinin pozulmasının aradan qaldırılması haqqında" 23.06.2022-ci il tarixli göstərişinin ləğv edilməsi hissəsində ləğv olunmalı, həmin hissədə iddia mümkün sayılmamalı, kassasiya şikayəti qalan hissədə təmin edilməməli, apellyasiya məhkəməsinin qərarı qalan hissədə dəyişdirilmədən saxlanılmalıdır.

32. Məhkəmə kollegiyası apellyasiya instansiyası məhkəməsinin qərarının qismən ləğvini və həmin hissədə iddianın mümkün sayılmamasını şərtləndirən aşağıdakı əsasların qeyd olunmasını zəruri hesab edir.

33. İşin hallarının araşdırılması (obyektiv araşdırma) prinsipinin tələbinə əsasən, məhkəmə proses iştirakçılarının izahatları, ərizə və təklifləri ilə, onların təqdim etdikləri sübutlarla və işdə olan digər materiallarla kifayətlənməyərək, mübahisənin düzgün həlli üçün əhəmiyyət kəsb edən bütün faktiki halları araşdırmağa borcludur. Qeyd edilən qayda həmçinin iddianın mümkünlüyü ilə bağlı şərtlərin mövcudluğunun yoxlanılmasına da şamil olunur. Belə ki, obyektiv araşdırma prinsipi yalnız iddianın əsaslığının yoxlanılması zamanı deyil, həmçinin iddianın mümkünlük şərtlərinin yoxlanılması zamanı da tətbiq olunmalıdır. Məhkəmə iddianın mümkünlüyünə dair bütün şərtlərin mövcud olmasını xidməti vəzifəsinə görə yoxlamağa borcludur.

34. Hazırkı mübahisəyə münasibətdə iddiaçının tələbi və hüquqi marağı "Antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə işlərə baxılmasının nəticələri haqqında" 21.06.2022-ci il qərarın və "Antiinhisar qanunvericiliyinin pozulmasının aradan qaldırılması haqqında" 23.06.2022-ci il tarixli göstərişin ləğv edilməsinə yönəlmişdir. Bu baxımdan hazırkı iddia mübahisələndirmə haqqında iddia növünə aiddir.

35. Nəzərə almaq lazımdır ki, prosessual qanunun tələbinə görə, inzibati məhkəmə icraatı qaydasında baxılmalı olan istənilən növ iddia yalnız onun mümkünlüyü haqqında şərt yerinə yetirildiyi təqdirdə yolverilləndir. Qanunvericilikdə iddia növlərindən asılı olaraq müxtəlif mümkünlük şərtləri, o cümlədən ümumi və xüsusi mümkünlük şərtləri müəyyən olunmuşdur. Məhkəməyə iddia ilə müraciət hüququ qanunvericiliklə nəzərdə tutulmuş həmin şərtlərə və məhdudiyyətlərə tabedir.

36. Bu baxımdan, həm də nəzərə almaq lazımdır ki, iddianın məhkəmə tərəfindən mümkün sayılması üçün həmin iddia növü üzrə mümkünlüklə bağlı müəyyən olunmuş əsas və əlavə şərtlər, o cümlədən mübahisə edilən hüquq münasibətinin inzibati hüquq

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 003

münasibəti olması, mübahisənin inzibati hüquq münasibətlərindən yaranması, mübahisə tərəflərindən birinin "İnzibati icraat haqqında" Qanun anlamında inzibati orqan olması ilə bağlı şərtlər və habelə inzibati prosessual qanunvericiliklə nəzərdə tutulmuş digər şərtlər mütləq ödənilmiş olmalıdır.

37. Bu qərarın 27-ci bəndində istinad edilən normalara əsasən, şəxsin hüquq və vəzifələri ilə bağlı inzibati orqan tərəfindən qəbul edilmiş inzibati aktın mübahisələndirilməsinə (ləğv olunmasına və ya dəyişdirilməsinə) dair iddialara (mübahisələndirmə haqqında) inzibati məhkəmə icraatı qaydasında baxılır. Mübahisələndirmə haqqında iddia vasitəsi ilə iddiaçı inzibati aktın ləğv olunmasını və ya dəyişdirilməsini məhkəmədən tələb edə bilər.

38. Bu qərarın 26-cı bəndində istinad edilən normanın məzmununa görə, inzibati akt inzibati orqan tərəfindən ümumi (publik) hüquq sahəsinə aid olan müəyyən (konkret) məsələni nizama salmaq və ya həll etmək məqsədilə qəbul edilmiş və ünvanlandığı hüquqi və ya fiziki şəxs (şəxslər) üçün müəyyən hüquqi nəticələr yaradan qərar, sərəncam və ya digər növ hakimiyyət tədbiridir.

39. İstinad edilən həmin norma baxımından, inzibati akt hakimiyyət tədbiri olmaqla aşağıdakı əlamətləri ilə səciyyələnir: 1) İnzibati orqan tərəfindən qəbul edilməli; 2) ümumi (publik) hüquq sahəsinə aid olan müəyyən (konkret) məsələni nizama salmaq və ya həll etmək məqsədi daşımalı; 3) ünvanlandığı hüquqi və ya fiziki şəxs (şəxslər) üçün müəyyən hüquqi nəticə yaratmalı; 4) qanunvericilikdə nəzərdə tutulmuş formalardan birinə uyğun olmalı; 5) xarici təsirə malik olmalıdır. Beləliklə, inzibati akt hüquqi nəticələr yaradır, yəni ünvanlandığı hüquqi və ya fiziki şəxsin (şəxslərin) hüquqi vəziyyətini dəyişdirir, onun üzərinə vəzifə və öhdəliklər qoyur və ya ona bu və ya digər hüququn həyata keçirilməsinə şərait yaradır, bununla da hüquq münasibətlərinin formalaşması, mövcud münasibətlərin dəyişdirilməsi və ya onlara xitam verilməsinin faktiki əsası kimi çıxış edir ("Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli, 474VQ nömrəli Qanununun tətbiqi ilə bağlı vergi ödəyicilərinin şəxsi hesab vərəqələrində əməliyyatların edilməsinə dair" Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının 13.08.2020-ci il tarixli, 02 nömrəli qərardadı, 24-cü bənd).

40. Bu qərarın 28-ci bəndində istinad edilən hüquqi mövqeyə görə, inzibati orqan tərəfindən qəbul edilmiş hər bir aktı inzibati akt hesab etmək olmaz. Yalnız "İnzibati icraat haqqında" Qanunun 2.0.2-ci maddəsində təsbit edilmiş anlamda qəbul edilmiş qərar inzibati akt kimi qiymətləndirilə bilər.

41. Bu baxımdan məhkəmə kollegiyası qeyd edir ki, hazırkı iş üzrə iddiaçı tərəfindən mübahisələndirilən "Antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə işə baxılmasının nəticələri haqqında" 21.06.2022-ci il tarixli qərarın 2-ci bəndi məzmun baxımından iddiaçıya münasibətdə sadəcə olaraq tövsiyələr nəzərdə tutur və hakimiyyət iradəsinin ehtiva olunduğu, eləcə də məcburi icra keyfiyyətinə malik tədbir qismində təfsir oluna bilməz. Nəzərə almaq lazımdır ki, ümumiyyətlə tövsiyə şəxsə münasibətdə hər hansı hüquqi nəticə yaratmır, yəni onun üçün hər hansı hüquq və vəzifə yaratmır, onun hüquqi vəziyyətini dəyişdirmir və ona münasibətdə hər hansı öhdəlik müəyyən etmir, yəni hər hansı tənzimləmə keyfiyyətinə malik deyildir. Bu baxımdan mübahisələndirilən qərarın 2-ci bəndi tövsiyə xarakteri daşıdığından və "İnzibati icraat haqqında" Qanunun 2.0.2-ci maddəsində təsbit edilmiş anlamda inzibati akt əlamətlərinə malik olmadığından, qərar həmin hissədə hakimiyyət tədbiri kimi və bunun üzərindən inzibati akt kimi qiymətləndirilə bilməz. Bu zaman həmin qərarın həm də məzmun baxımından bölünə bilən olması, yəni qərarın 1-ci və 2-ci bəndlərinin əlahiddə və müstəqil məzmuna malik olması, bir-biri ilə üzvi şəkildə bağlı olmadığı da nəzərə alınmalıdır.

42. “Antiinhisar qanunvericiliyinin pozulmasının aradan qaldırılması haqqında” 23.06.2022-ci il tarixli göstərişə münasibətdə isə qeyd olunmalıdır ki, həmin göstərişlər mahiyyət baxımından mübahisələndirilən 21.06.2022-ci il tarixli qərarın 1-ci bəndinin eynilə təkrarıdır və hər hansı fərqli tənzimləmə, eləcə də davranış qaydası nəzərdə tutmur. Bununla bağlı şifahi məhkəmə baxışında cavabdeh həmin göstərişin 21.06.2022-ci il tarixli qərarın icrası qaydasında qəbul edildiyini və həmin inzibati aktın icrasına yönəlik tədbirlər kimi nəzərdə tutulduğunu bildirmişdir. Nəzərə almaq lazımdır ki, “İnzibati icraat haqqında” Qanun anlamında inzibati icraat son nəticədə yekunda vahid inzibati aktın qəbulu məqsədlərinə xidmət edir və bu mənada icraatın yekununa dair fərqli adda, lakin eyni məzmunda 2 qərarın qəbulu istisna olunmalıdır. Bu zaman həm də nəzərə alınmalıdır ki, mübahisələndirilən 21.06.2022-ci il tarixli qərar cavabdehin adından iddiaçıya münasibətdə inzibati icraatın aparılması məqsədi ilə yaradılmış və qərar qəbul etmək səlahiyyəti ilə təchiz edilmiş komissiya tərəfindən, göstəriş isə məhz həmin qərar əsasında qurumun rəhbəri tərəfindən qəbul olunmuşdur. Başqa sözlə, sözügedən 23.06.2022-ci il tarixli göstəriş əsas inzibati akta – 21.06.2022-ci il tarixli qərarın 1-ci bəndinə bağlıdır və həmin inzibati aktdan irəli gəlir. İnzibati aktın ləğv olunduğu təqdirdə, 23.06.2022-ci il tarixli göstərişin əsası aradan qalxdığı üçün həmin göstəriş də hər hansı hüquqi əhəmiyyətə malik olmayacaqdır. Bu mənada, göstərişin mübahisələndirilməsinə dair iddiaçının hər hansı hüquqi marağı da yaranmır.

43. Hazırkı mübahisəyə münasibətdə apellyasiya məhkəməsi tərəfindən qeyd olunan xüsusatlar nəzərə alınmamış və həmin xüsusatlara iddianın mümkünlüyü baxımından qiymət verilməmişdir.

44. Məhkəmə kollegiyası qeyd edir ki, iddianın mümkünlük şərtləri inzibati məhkəmə icraatının bütün mərhələlərində məhkəmə tərəfindən xidməti vəzifəsinə görə yoxlanılır. İddianın mümkünlüyü onun əsaslılığının yoxlanılması üçün ilkin məcburi şərtdir. Məhkəmələr tərəfindən yalnız mümkün sayılmış iddialara mahiyyəti üzrə baxılır. Mümkünlük şərtlərini ödəməyən iddiaya mahiyyəti üzrə baxılması və onun əsaslılığının yoxlanılması istisna olunur.

45. Beləliklə, məhkəmə kollegiyası hesab edir ki, cavabdehin kassasiya şikayəti qismən təmin edilməli, apellyasiya instansiyası məhkəməsinin qərarı cavabdehin “Antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə işə baxılmasının nəticələri haqqında” 21.06.2022-ci il tarixli qərarının 2-ci bəndinin (tövsiyələr bəndinin) və “Antiinhisar qanunvericiliyinin pozulmasının aradan qaldırılması haqqında” 23.06.2022-ci il tarixli göstərişinin ləğv edilməsi hissəsində ləğv olunmalı, həmin hissədə iddia mümkün sayılmamalıdır.

46. İddiaçının iddia tələbinin cavabdehin “Antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə işə baxılmasının nəticələri haqqında” 21.06.2022-ci il tarixli qərarının 1-ci bəndinin ləğv edilməsi hissəsinə münasibətdə isə məhkəmə kollegiyası iş üzrə materialları və kassasiya şikayətinin dəlillərini araşdıraraq hesab edir ki, həmin hissədə şikayət əsassızdır. Apellyasiya instansiyası məhkəməsi tərəfindən həmin hissədə işə baxılan zaman prosessual hüquq normalarının tələblərinə riayət edilmiş, habelə mübahisəli hüquq münasibətlərinə maddi hüquq normaları düzgün tətbiq olunmuşdur. Həmin hissədə apellyasiya instansiyası məhkəməsinin qərarının ləğv olunması və ya dəyişdirilməsi üçün əsas müəyyən edilməmişdir.

47. Məhkəmə kollegiyası xüsusilə qeyd edir ki, sözügedən hissədə kassasiya şikayətinin dəlilləri mahiyyətcə apellyasiya şikayətinin dəlillərini təkrarlamaqla onunla eynilik təşkil edir. Apellyasiya instansiyası məhkəməsi tərəfindən həmin hissədə hazırkı mübahisə üzrə zəruri olan həcmdə, eləcə də apellyasiya şikayətinin dəlillərindən irəli gələn işin hallarının tam və hərtərəfli araşdırılması təmin edilmişdir. Ona görə də, həmin hissədə

işin faktiki halları ilə bağlı apellyasiya instansiyası məhkəməsinin araşdırmaları yetərli hesab olunur.

48. Qanunvericiliyin yuxarıda istinad olunan normaları baxımından mübahisələndirilən qərarın (1-ci bəndinin) ləğv edilməsi üçün əsasların mövcudluğu ilə bağlı məsələ apellyasiya instansiyası məhkəməsi tərəfindən lazımi qaydada və hərtərəfli araşdırılmışdır. Məhkəmə bununla bağlı istinad etdiyi sübutları prosessual qanunvericiliyin mümkünlük, aidiyyət və mötəbərlik tələblərini nəzərə almaqla qiymətləndirmişdir. Odur ki, apellyasiya instansiyası məhkəməsinin qərarında ətraflı şərh olunmuş həmin məsələləri təkrarlamağa lüzum qalmır.

49. Apellyasiya instansiyası məhkəməsi tərəfindən sözügedən hissədə mübahisənin müəyyən olunmuş faktiki hallarına hüquq normaları da düzgün tətbiq edilmişdir, ona görə də məhkəmə kollegiyası, apellyasiya instansiyası məhkəməsinin hüquq normalarının tətbiqi ilə bağlı qiymətləndirməsi ilə də razılaşır.

50. Bununla yanaşı, kassasiya şikayətinin dəlillərinə münasibətdə məhkəmə kollegiyası aşağıdakıları qeyd edir.

51. Mübahisələndirilən “Antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə işə baxılmasının nəticələri haqqında” 21.06.2022-ci il tarixli qərar cavabdeh tərəfindən “Antiinhisar fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin 1-ci bəndinə, “Təbii inhisarlar haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 1-ci hissəsinə, 9-cu maddəsinin birinci hissəsinin birinci və altıncı bəndlərinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.05.1998-ci il tarixli, 120 nömrəli qərarı ilə təsdiq edilmiş “Antiinhisar qanunvericiliyinin pozulması haqqında işlərə baxılması Qaydaları”nın 2.12-ci bəndinə istinadən qəbul edilmişdir. Cavabdehin əsaslandırmasına görə, istinad olunan normalara əsasən təbii inhisarları tənzimləyən orqanlar “Təbii inhisarlar haqqında” Qanuna və Azərbaycan Respublikasının digər normativ-hüquqi aktlarına uyğun olaraq təbii inhisar subyektlərinin fəaliyyətinə dövlət nəzarətini həyata keçirirlər. Təbii inhisarları tənzimləyən orqanlar istehlakçıların mənafeyinə mənfi təsir göstərə bilən və ya təbii inhisar vəziyyətindən sərbəst rəqabət vəziyyətinə iqtisadi cəhətdən əsaslandırılmış keçidə mane olan hərəkətlərin qarşısının alınması və ya aradan qaldırılması üçün bu Qanunla və digər normativ-hüquqi aktlarla müəyyən edilmiş tədbirləri həyata keçirirlər.

52. “Antiinhisar fəaliyyəti haqqında” Qanunun 11-ci maddəsinə görə, bu və ya digər malların istehsalı və xidmətlər sahəsində özlərinin təbii inhisar mövqeyindən sui-istifadə edərək ölkənin, təsərrüfat subyektlərinin mənafelərinə və istehlakçıların hüquqlarına ziyan vuran idarəetmə orqanlarının və təsərrüfat subyektlərinin fəaliyyəti üzərində antiinhisar nəzarəti xüsusi formada həyata keçirilir. “Təbii inhisarlar haqqında” Qanunun 2-ci maddəsinə görə, bu Qanun təbii inhisar subyektlərinin, istehlakçıların, müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının iştirak etdiyi məhsul, iş, xidmət (bundan sonra əmtəə) bazarlarında yaranan münasibətləri tənzimləyir. Həmin normaya əsasən, bu Qanunun müəyyən etdiyi hallar istisna olmaqla, onun müddəaları təbii inhisar subyektlərinin təbii inhisara aid olmayan fəaliyyət sahələrinə şamil edilmir. İstinad olunan Qanunun 5-ci maddəsində təbii inhisar subyektlərinin təbii inhisara aid fəaliyyət sahələri, 8-ci maddəsində təbii inhisar subyektlərinin fəaliyyətinə dövlət nəzarəti və nəzarətin məzmunu və predmeti, 9-cu maddəsində təbii inhisarları tənzimləyən orqanların səlahiyyətləri müəyyən edilmişdir.

53. Təbii inhisarlar haqqında qanunvericiliyin müvafiq normalarına əsasən, təbii inhisar subyektlərinin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19.07.2013-cü il tarixli, 189 nömrəli qərarı ilə “Təbii inhisar subyektlərinin Siyahısı” təsdiq edilmişdir.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 003

54. “Təbii inhisarlar haqqında” Qanunun 2-ci maddəsində magistral və yerli dəmir yolu xətlərinin, yol qurğu və tikililərin istismarı, hərəkəti idarəetmə və hərəkət təhlükəsizliyi, dəmir yolu stansiyaları və sərnişin vağzalları xidmətləri ilə bağlı fəaliyyət sahələri təbii inhisar subyekti qismində iddiaçının təbii inhisara aid fəaliyyət sahələri kimi müəyyən olunmuşdur.

55. Qeyd olunan normalara əsasən, iddiaçı təbii inhisar subyektidir. İddiaçının magistral və yerli dəmir yolu xətlərinin, yol qurğu və tikililərin istismarı, hərəkəti idarəetmə və hərəkət təhlükəsizliyi, dəmir yolu stansiyaları və sərnişin vağzalları xidmətləri ilə bağlı fəaliyyət sahələri təbii inhisara aid fəaliyyət sahələri kimi müəyyən olunmuşdur.

56. Yuxarıda istinad olunan normaların kompleks təhlili və əlaqəli təfsiri baxımından, təbii inhisar subyektlərinin təbii inhisara aid fəaliyyət sahələrində həmin subyektlər tərəfindən antiinhisar qanunvericiliyinin tələblərinə əməl olunması üzərində nəzarət xüsusi qaydada, yəni dövlət nəzarəti formasında həyata keçirilir. Bu mənada cavabdeh tərəfindən həmin subyektlərdə antiinhisar qanunvericiliyinin tələblərinə əməl olunması vəziyyəti yoxlanılarkən cavabdeh tərəfindən təbii inhisarlar haqqında qanunvericiliyin müvafiq normaları nəzərə alınmalıdır. Həmçinin nəzərə almaq lazımdır ki, qeyd olunan antiinhisar nəzarəti (“Antiinhisar fəaliyyəti haqqında” Qanunun 11-ci maddəsinə görə) bu və ya digər istehsal, əmtəə və xidmətlər bazarında təbii inhisar subyektlərinin özlərinin təbii inhisar mövqeyindən sui-istifadə edərək ölkənin, təsərrüfat subyektlərinin mənafelərinə və istehlakçıların hüquqlarına ziyan vurduqları halda həyata keçirilir.

57. Hazırkı mübahisə cavabdeh tərəfindən iddiaçının məhz təbii inhisara aid fəaliyyət sahələri üzərində dövlət nəzarətinin həyata keçirilməsi ilə bağlıdır. Başqa sözlə, hazırkı mübahisəyə münasibətdə dövlət nəzarətinin predmetini iddiaçının məhz təbii inhisara aid fəaliyyət sahələri təşkil edir.

58. İstinad olunan normalar baxımından cavabdeh orqan hazırkı mübahisəyə münasibətdə iddiaçının təbii inhisar subyekti kimi yalnız təbii inhisara aid fəaliyyəti üzərində dövlət nəzarətini həyata keçirməyə səlahiyyətlidir. Belə ki, “Təbii inhisarlar haqqında” Qanunun 8-ci və 9-cu maddələri yalnız təbii inhisar subyektlərinin fəaliyyətinə dövlət nəzarəti ilə bağlı səlahiyyətləri deyil, eyni zamanda həmin səlahiyyətlərin çərçivəsini, təbii inhisar subyektlərinə münasibətdə dövlət nəzarətinin predmetini və təbii inhisar subyektlərinin üzərində dövlət nəzarətinin həyata keçirildiyi hərəkətlərinin dairəsini də müəyyən edir. Həmin Qanunun 8-ci maddəsi anlamında dövlət nəzarətinin predmetini təbii inhisar subyektləri tərəfindən həyata keçirilən “Təbii inhisarlar haqqında” Qanunun 8-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş hərəkətlər təşkil edə bilər.

59. Bu baxımdan cavabdeh “Təbii inhisarlar haqqında” Qanunun qeyd edilən maddələrinə əsasən dövlət nəzarəti çərçivəsində icraat apardığı hallarda, iddiaçı tərəfindən həmin Qanunun 8-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş hərəkətlərlə, yəni barəsində bu Qanuna uyğun olaraq dövlət tənzimlənməsi tətbiq edilməyən əmtəənin istehsalı (satışı) üçün əsas vəsaitlərə mülkiyyət və ya istifadə hüququnun əldə edilməsi (əgər təbii inhisar subyektinin bütövlükdə həmin əmtəələrin istehsalına cəlb olunmuş əsas vəsaitlərinin balans dəyəri bu subyektin təsdiq olunmuş son balansı üzrə nizamnamə kapitalının dəyərinin 10%-dən çox olarsa), barəsində bu Qanuna uyğun olaraq dövlət tənzimlənməsi tətbiq edilən əmtəənin istehsalı (satışı) üçün əsas vəsaitlərin satışı, icarəyə verilməsi və ya digər hərəkətlər nəticəsində təbii inhisar subyektlərinin mülkiyyət və ya istifadə hüququnun digər təsərrüfat subyektlərinə keçməsi (əgər təbii inhisar subyektinin bütövlükdə həmin əmtəənin istehsalına (satışına) cəlb olunmuş əsas vəsaitlərinin balans dəyəri həmin subyektin təsdiq olunmuş son balansı üzrə nizamnamə kapitalının dəyərinin 10%-dən çox olarsa), əsas vəsaitlərin lizinq əsasında istehlakçılara verilməsi, təbii inhisar subyektləri tərəfindən bu Qanunla tənzimlənməyən fəaliyyət sahələrinə investisiyaların

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 003

ayrılması ilə bağlı müəyyən olunmuş tələblərə riayət olunub-olunmamasını yoxlamalı və bunun üzərindən qərar qəbul etməlidir.

60. Nəzərə almaq lazımdır ki, istinad olunan maddələrə əsasən, iddiaçının təbii inhisara aid edilmiş fəaliyyət sahələri ilə bağlı hərəkətləri (barəsində dövlət tənzimlənməsi tətbiq edilməyən əmtəənin istehsalı (satışı) üçün əsas vəsaitlərə mülkiyyət və ya istifadə hüququnun əldə edilməsi, barəsində "Təbii inhisarlar haqqında" Qanuna uyğun olaraq dövlət tənzimlənməsi tətbiq edilən əmtəənin istehsalı (satışı) üçün əsas vəsaitlərin satışı, icarəyə verilməsi və ya digər hərəkətlər nəticəsində təbii inhisar subyektlərinin mülkiyyət və ya istifadə hüququnun digər təsərrüfat subyektlərinə keçməsi, əsas vəsaitlərin lizinq əsasında istehlakçılara verilməsi, "Təbii inhisarlar haqqında" Qanunla tənzimlənməyən fəaliyyət sahələrinə investisiyaların ayrılması ilə bağlı hərəkətləri) yalnız həmin Qanunun 8-ci maddəsində, o cümlədən həmin maddənin 2-ci bəndində müəyyən olunmuş şərtlərin mövcud olduğu təqdirdə, dövlət nəzarətinin predmeti ola bilər. Yəni təbii inhisarlar haqqında qanunvericilik baxımından, dövlət nəzarəti iddiaçının məhz təbii inhisara aid həmin fəaliyyət sahələri ilə bağlı qeyd olunan hərəkətlərinə münasibətdə həyata keçirilə bilər.

61. Hazırkı mübahisəyə münasibətdə işin məhkəmələr tərəfindən müəyyən olunmuş hallarından görünür ki, cavabdeh dövlət nəzarətinin həyata keçirilməsi zamanı "Təbii inhisarlar haqqında" Qanunun 2-ci, 8-ci və 9-cu maddələrinin tələblərinə əməl etməmiş, eləcə də "Antiinhisar fəaliyyəti haqqında" Qanunun 11-ci maddəsinin tələbini nəzərə almamış, nəticədə təbii inhisar subyekti kimi iddiaçı tərəfindən həyata keçirilən hərəkətlər üzərində qanunla ("Təbii inhisarlar haqqında" Qanunun 8-ci və 9-cu maddələri ilə) müəyyən edilmiş dövlət nəzarətinin hüdudlarından kənara çıxmışdır.

62. Təbii inhisarları tənzimləyən orqanların səlahiyyətlərini nəzərdə tutan "Təbii inhisarlar haqqında" Qanunun 9-cu maddəsi baxımından, cavabdeh qanunvericilikdə nəzərdə tutulmuş qaydada öz səlahiyyətləri daxilində bu Qanunun pozulması ilə bağlı məsələlərə baxmaq və qərarlar qəbul etmək səlahiyyətinə malik olduğunu nəzərə almamışdır. Halbuki, hazırkı mübahisəyə münasibətdə mübahisələndirilən qərarın 1-ci bəndinin qanunauyğunluğu təbii inhisarları tənzimləyən orqan kimi dövlət nəzarətinin həyata keçirilməsi zamanı cavabdeh tərəfindən "Təbii inhisarlar haqqında" Qanunun 8-ci maddəsinin tələblərinin nəzərə alınması baxımından qiymətləndirilməlidir.

63. Məhkəmə kollegiyası qeyd edir ki, qanunvericinin belə yanaşması təbii inhisarların dövlətin iqtisadi həyatında oynadığı roldan irəli gəlir. Belə ki, dövlət tərəfindən təbii inhisarlar iqtisadiyyatın normal fəaliyyətini və inkişafını təmin edən əsas faktorlardan biri kimi qəbul olunur və onların bazarda fəaliyyəti xüsusi qaydada tənzimlənir. Bununla belə, dövlətin tənzimləmə tədbirləri ağlabatan və mütənasib olmalıdır. Əks təqdirdə, həddən artıq sərt tənzimləmə tədbirlərinin tətbiqi formalaşmış bazar münasibətlərində və tələbatın ödənilməsində disbalansa səbəb ola bilər.

64. Bu kontekstdə qeyd olunmalıdır ki, dövlətin antiinhisar qanunvericiliyi və antiinhisar siyasəti, bir tərəfdən, iqtisadiyyatda azad və sağlam rəqabət mühitinin yaradılması və inkişafı məqsədlərinə, digər tərəfdən isə, inhisarçılıq fəaliyyətinin və qeyri-sağlam rəqabətin qarşısının alınması məqsədlərinə xidmət edir.

65. Təbii inhisar institutunun mahiyyəti baxımından təbii inhisara aid edilmiş fəaliyyət sahələrində rəqabətin inkişafı iqtisadi cəhətdən effektiv və səmərəli deyil. Belə ki, iqtisadi nəzəriyyədə ümumi qəbul olunmuş anlayışa əsasən, təbii inhisar əmtəə bazarının elə vəziyyətidir ki, bu bazarda istehsalın texnoloji xüsusiyyətləri baxımından rəqabətin istisna edilməsi tələbatın daha səmərəli və effektiv təmin olunmasına xidmət edir. Bundan əlavə, inhisar subyektlərinin istehsal etdiyi (satdığı) əmtəələrin, xidmətlərin istehlak bazarında başqa əmtəə və xidmətlərlə əvəz edilməsi bir qayda olaraq mümkün olmur. Yəni təbii inhisar əmtəələrin, xidmətlərin istehsalı və satışının dövlət tərəfindən rəsmi

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 003

qəbul olunmuş və qaçılmaz inhisarı kimi qiymətləndirilir. Beləliklə, təbii inhisar sahələrində rəqabət mühitinin yaradılması və inkişafı iqtisadi cəhətdən mümkün və effektiv olmadığından, dövlət başqa tənzimləmə formalarından istifadə etməyə və bu zaman nəinki istehlakçıların və biznesin, həm də özünün və təbii inhisarlar subyektlərinin marağını nəzərə almağa borcludur.

66. Məhkəmə kollegiyasının qənaətinə görə, hazırkı mübahisənin obyektiv həlli baxımından təbii inhisar sahələrində dövlət tənzimləməsinin və nəzarətinin qeyd olunan xüsusatları nəzərə alınmalı, bundan əlavə, təbii inhisar subyektlərinin təbii inhisara aid edilmiş fəaliyyət sahələri üzərində dövlət nəzarəti ilə təbii inhisara aid edilməyən fəaliyyət sahələri üzərində antiinhisar nəzarəti institutları fərqləndirilməlidir. Təbii inhisar subyektlərinin təbii inhisara aid edilməyən fəaliyyət sahələri üzərində cavabdeh tərəfindən antiinhisar nəzarəti "Təbii inhisarlar haqqında" Qanunla müəyyən edilmiş dövlət nəzarəti qaydasında deyil, "Antiinhisar fəaliyyəti haqqında" Qanunun müddəaları əsasında ümumi qaydada həyata keçirilməlidir. Hazırkı mübahisəyə münasibətdə cavabdeh tərəfindən ümumiyyətlə belə fərqləndirmə aparılmamış, iddiaçı tərəfindən təbii inhisara aid edilməyən fəaliyyət sahələrində antiinhisar qanunvericiliyinin müvafiq normalarına istinadən hansı tələblərin pozulduğu müəyyən olunmamışdır. Halbuki, belə hallarda təsərrüfat subyekti tərəfindən rəqabət mühitinə təsir edən və antiinhisar qanunvericiliyin tələblərinin pozulması ilə müşayiət olunan hərəkətlərin törədilməsi faktının konkret müəyyən edilməsi zəruridir.

67. Bundan başqa, qərarın qəbulu üzrə icraat zamanı antiinhisar qanunvericiliyinin tələblərinin pozulması faktının müəyyən olunması üçün cavabdeh tərəfindən əmtəə və xidmət bazarının təhlili aparılmamış, bazarda rəqabət vəziyyəti təhlil olunmamışdır.

68. Məhkəmə kollegiyası həmçinin qeyd edir ki, cavabdeh tərəfindən qəbul edilmiş və iddiaçının hüquqları sferasına ciddi müdaxiləni nəzərdə tutan mübahisələndirilən qərar həmçinin mütənasiblik prinsipinin də tələblərinə cavab vermir. Belə ki, həmin qərarla cavabdehin üzərinə qoyulmuş tədbirlərin icra olunmasının mümkün hüquqi və faktiki nəticələri (məsələn, ən azından müqavilələrin ləğvinə münasibətdə baş verə biləcək nəticələr) cavabdeh tərəfindən qiymətləndirilməmiş, antiinhisar qanunvericiliyinin pozulması hallarının aradan qaldırılması üçün həmin tədbirlərin daha yumşaq müdaxilə anlamında zəruriliyi araşdırılmamışdır. Nəzərə alınmalıdır ki, qərarda müəyyən edilmiş tədbirlərin icrasının təsərrüfat subyektinə əhəmiyyətli ziyan vuracağı hallarda da həmin tədbirlər mütənasib hesab oluna bilməz.

69. Məhkəmə kollegiyası həmçinin qeyd edir ki, cavabdeh tərəfindən qərar qəbul olunarkən hər bir halda nəinki antiinhisar və təbii inhisarlar haqqında qanunvericiliyin məqsədləri (iqtisadiyyatda azad və sağlam rəqabət mühitinin yaradılması və inkişafı, inhisarçılıq fəaliyyətinin və qeyri-sağlam rəqabətin qarşısının alınması), eləcə də bazar subyektlərinin həyata keçirdiyi fəaliyyətin ictimai əhəmiyyəti də nəzərə alınmalıdır. Bu baxımdan cavabdeh təbii inhisar subyektlərinin təbii inhisara aid edilmiş fəaliyyət sahələri üzərində dövlət nəzarətini həyata keçirərkən və bununla bağlı məsuliyyət tədbirləri tətbiq edərkən, həm də həmin subyektin, konkret halda iddiaçının həyata keçirdiyi fəaliyyətin və xidmətin təşkilinin fasiləsizliyinə və davamlılığına dair cəmiyyətin ümumi maraqlarını da nəzərə almaq öhdəliyi daşıyır. Nəzərə almaq lazımdır ki, belə (təşkilinə və keyfiyyətinə dövlətin məsuliyyət daşıdığı) xidmətlərin fasiləsiz, ardıcıl və davamlı təşkili cəmiyyətin ümumi maraqlarından irəli gəlir. Hətta pozuntunun müəyyən olunduğu hallarda belə, tətbiq ediləcək məsuliyyət tədbirləri təbii inhisarda olan xidmətlərin davamlı və fasiləsiz həyata keçirilməsini ümumiyyətlə ortadan qaldıracaq sərtlikdə və xarakterdə olmamalı, həmin xidmətlərin həyata keçirilməsində proqnozlaşdırılmaz risklərin meydana çıxması təhlükəsini və nəticəsini yaratmamalıdır. Bu zaman həm cəmiyyətin ümumi maraqları, həm də təbii inhisar subyekti ilə bazar münasibətlərinə daxil olmuş sahibkarlıq fəaliyyəti

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Səyyad Kərimov imzaladı - 08.05.2024,
Hakim Aida Hüseyn imzaladı - 08.05.2024, Hakim Zakir Quliyev imzaladı - 08.05.2024
**Məhkəmənin adı: Azərbaycan Respublikasının Ali Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=901527cceb844ceca3e73c11ad8ff96d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 003

subyektlərinin əsaslı mənafeləri nəzərə alınmalıdır. Bu mənada, cavabdeh tərəfindən qəbul edilmiş məsuliyyət qərarının sözügedən qaydada aparılmış bir araşdırmaya və qiymətləndirməyə əsaslandığını da söyləmək mümkün deyildir. Məsələn, qərarda cəmiyyətə məxsus törəmə müəssisələrin ekspeditor fəaliyyətinin 01.11.2022-ci il tarixinədək dayandırılmasının, mövcud icarə müqavilələrinin 01.09.2022-ci il tarixinədək ləğv olunmasının tələb edildiyini nəzərə aldıqda, həmin tələblərin icrasının doğuracağı nəticələrin qeyd olunan yanaşma baxımından qiymətləndirilmədiyi aşkar görünür.

70. Beləliklə, yuxarıda istinad olunan normalar baxımından və qeyd edilən səbəblərdən apellyasiya instansiyası məhkəməsinin sözügedən hissədə iş üzrə gəldiyi nəticə qanuni və əsaslı hesab olunmalıdır.

71. Həmin hissədə mübahisələndirilən məhkəmə qərarı kassasiya şikayəti verilə bilən hüquq pozuntusuna əsaslanmadığından, şikayət təmin edilmədən, apellyasiya instansiyası məhkəməsinin qərarı dəyişdirilmədən saxlanılmalıdır.

72. Yuxarıda göstərilənlərə əsasən məhkəmə kollegiyası

**QƏRARA ALDI:**

Cavabdeh tərəfindən verilmiş kassasiya şikayəti qismən təmin edilir.

Bakı Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının 20 sentyabr 2023-cü il tarixli, 2-1(103)-1280/2023 nömrəli qərarı qismən, yəni cavabdehin "Antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə işə baxılmasının nəticələri haqqında" 21.06.2022-ci il tarixli qərarının 2-ci bəndinin (tövsiyələr bəndinin) və "Antiinhisar qanunvericiliyinin pozulmasının aradan qaldırılması haqqında" 23.06.2022-ci il tarixli göstərişinin ləğv edilməsi hissəsində ləğv olunur.

Həmin hissədə iddia mümkün sayılmır.

Kassasiya şikayəti qalan hissədə təmin edilmir.

Bakı Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının 20 sentyabr 2023-cü il tarixli, 2-1(103)-1280/2023 nömrəli qərarı qalan hissədə dəyişdirilmədən saxlanılır.

Qərar qətidir.